# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 56 (3294) Cümə axşamı / 18-19 iyun 2020-ci il Qiyməti 40 qəpik




## Azərbaycan neftlə bağlı şoklara daha dayanıqlı ölkələr sırasındadır

**Azərbaycanın əsasən böyük suveren aktivlərinin olması və xarici valyuta ehtiyatları ölkəni neft qiymətlərinin kəskin azalmasına qarşı daha az həssas edir. Bu barədə "Moody's Investors Service" şirkətinin araşdırmasında deyilir.**

Araşdırmaya əsasən, neft ixracatçıları arasında Azərbaycan, Qazaxıstan, Rusiya, Səudiyyə Ərəbistanı və Qətər neft bazarının çöküşü səbəbindən yaranan şoklara daha dayanıqlıdır. Oman, İraq və Bəhreyn kimi ölkələr isə maliyyə buferlərinin məhdud olması səbəbindən sarsıntılara daha həssas sayılır. "Moody's" qeyd edir ki, yuxarı neft qiymətləri dövründə bir çox karbohidrogen ixracatçıları böyük suveren aktivlər ehtiyatı toplayıb. Bu, hazırkı aşağı qiymətlər şəraitində onlara yüksək davamlılıq səviyyəsini təmin edəcək. Lakin bu davamlılığı dəstəkləmək üçün xərclər azaldılmalıdır.

Sözügedən dövrdə suveren aktivlərin likvidliyi yüksək olan hissəsinin dövlət borcunu əhəmiyyətli dərəcədə üstələməsinə, büdcə kəsirlərini və dövlət borclarını bağlamaq üçün şərait yaradır. "Moody's"in araşdırmasında bildirilir ki, 2019-cu ildə büdcə ehtiyatları BƏƏ, Qətər, Azərbaycan və Qazaxıstanda dövlət borcundan yüksək, Səudiyyə Ərəbistanda isə eyni səviyyədə olub.

## Biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq



***İyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib. Hafta.az xəbər verir ki, videokonfrans iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:***

- Sabahınız xeyir.

"Microsoft"un vitse-prezidenti Filip Roq:

- Sabahınız xeyir.

Prezident İlham Əliyev: Sizi görmək çox xoşdur.

Filip Roq: Mən də həmçinin. Bir neçə il keçib. Sizi sağlam görmək çox gözəldir. Vaxt ayırdığınıza görə təşəkkür edirik.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Mən bizim bir neçə il əvvəl Bakıdakı görüşümüzü xatırlayıram.

Filip Roq: Bizim səyahət edə bildiyimiz daha yaxşı vaxtlarda.

Prezident İlham Əliyev: Bəli, lakin indi biz özümüzü hazırkı reallığa uyğunlaşdırmalıyıq.

Filip Roq: Tamamilə doğrudur. Yaradılmış imkana görə Sizə təşəkkür edirik. Məni bir neçə həmkarım müşayiət edir. Bizim tərəfdən regional rəhbər xanım Den Ouden, hökumətlə əlaqələr üzrə təmsilçimiz xanım Vildfanq və əlbəttə ki, Azərbaycan üzrə baş menecer Qaçay. Sözsüz ki, bayaq qeyd etdiyim kimi, orada, Sizin gözəl şəhərinizdə şəxsən olmaq istərdim. Siz bütün dünyadakı vəziyyəti başa düşürsünüz. Biz Sizə salamlarımızı çatdırırıq. Mənə gəlincə, öz vətənimdən - Almaniyadan. Sizinlə görüşmək imkanı əldə etmək bizim üçün böyük fürsətdir. Bu mürəkkəb zamanda vaxt ayırdığınız üçün təşəkkür edirik. İlk növbədə, deyərdim ki, ölkənizdə pandemiyanın təsirinin kifayət qədər nəzarət altında olduğunu eşitdiyimə şad oldum. Mən dünya liderləri ilə əlaqə saxladığımdan bu, heç də həmişə belə olmur. Nəhayət bilirsiniz ki, texnologiya və gördüyümüz bütün işlərdən başqa insan sağlamlığı və insan həyatı bizim üçün prioritet təşkil edir. Hər kəsin sağlamlığının qorunması üçün gördüyünüz işlərə görə Sizi və hökumətinizi təbrik edirik. Lakin pandemiya heç də fərq qoymur. Ona görə də biz ehtiyatlı olmalıyıq. İkincisi, bu gün əlaqə saxlamaq imkanına görə Sizə bir daha təşəkkür edirik.

Görüş

ardı səh. 2

### Yoxlama

**Gömrük nəzarətindən gizlədilən mobil telefonlar aşkarlanıb.** Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan "Mercedes Benz Atego" markalı nəqliyyat vasitəsilə gələn Azərbaycan vətəndaşı saxlanılıb və şifahi sorğu-sual olunub. Bu zaman sürücü nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirsə də, gömrük baxışı zamanı avtomobilin salonundakı qabaq oturacağın alt hissəsində, sağ və sol kiçik yük yerlərində, həmçinin ön şitin içərisində gömrük nəzarətindən gizlədilən ümumilikdə 3 ədəd "Apple iPhone 11 Pro Gold 64 GB" və 3 ədəd "Apple iPhone 11 Pro Max Midnight Green 64 GB" markalı mobil telefonlar aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

### Olay

**Gəncədə 4 nəfərin bıçaqlanması faktı ilə bağlı cinayət işi başlanıb.** 1950-ci il təvəllüdlü Quliyev Mahir Əliqara oğlu qardaşı arvadı 1967-ci il təvəllüdlü Ofeliya Quliyevanı, öz gəlini 1984-cü il təvəllüd Günay Quliyevanı və nəvələri- 2006-cı il təvəllüdlü Malik Quliyev, 2002-ci il təvəllüdlü Quliyeva Sevinc Elnur qızını bıçaqlayıb. O. Quliyeva hadisə yerində ölüb. Gəlini və nəvələri isə yaralı vəziyyətdə xəstəxanaya yerləşdirilib. Hadisəni törədən M. Quliyev hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Faktla bağlı Gəncə şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, ekspertizalar təyin edilib. Zəruri istintaq tədbirləri davam etdirilir.

### Qarət

**Xətai rayonu ərazisində oğurluqla məşğul olan şəxslər tutulublar.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, rayon ərazisindəki üç mənzildən qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri C.Həsənov və əvvəllər məhkum olunmuş P.Mustafayev Xətai Rayon Polis İdarəsinin 34-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı araşdırmalar davam etdirilir.

### Qəza

**Xaçmazda piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi qeydə alınıb. Xaçmaz şəhər sakini, 2010-cu il təvəllüdlü Nadirov Nihad Əzizağa oğlunu maşın vurub.** Qəza nəticəsində azyaşlı müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Azyaşlı Xaçmaz Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Faktla bağlı araşdırmalar davam etdirilir.



## Tramp Amerika polisində islahat haqqında fərman imzalayıb



**ABŞ Prezidenti Donald Tramp polis əməkdaşları tərəfindən hüquqazidd əməllərin aşkar edilməsi və departamentlərin bu istiqamətdə fəaliyyətinin stimullaşdırılması tədbirlərinin həyata keçirilməsini nəzərdə tutan fərman imzalayıb.**

Tramp bu fərmanın imzalanması barədə bəyanatla Ağ evdə çıxış edərkən polisi tərifləyib və deyib ki, polis təşəkkürə layiqdir. Bununla bərabər, o qeyd edib ki, qanun və qayda bütün ölkədə bərpa olunmalıdır və onun administrasiyası bunun üçün nə mümkündürsə edəcək.

Corc Floydun Minneapolisdə polislər tərəfindən saxlanması zamanı ölümündən sonra artıq iki həftə idi ki, həm demokratlar, həm də respublikaçılar hüquq mühafizə orqanlarının fəaliyyətlərində islahatlar keçirilməsini tələb edirdilər. Prezidentin sözlərinə görə, o, polis ilə münaqişə zamanı həlak olmuş bir neçə insanın ailələri ilə görüşüb. Ağ evin rəhbəri həlak olanların ailələrinə müraciətlə deyib ki, bütün millət onların kədərinə şərikdir. Tramp administrasiyasının fərmanında polisin maliyyələşdirilməsinin azaldılması nəzərdə tutulmur. Bu cür çağırışlar ümummilli etiraz hərəkatı tərəfindən dəstəklənir. Prezident bəyan edib ki, polis zabitinin həyatı təhlükədə olduğu hallar istisna olunmaqla polislər tərəfindən boğma fəndlərinin tətbiq edilməsi qadağan olunacaq.



## Tibbi maskalar üçün xammal Azərbaycanda istehsal olunacaq-qiymət ucuzlaşacaqmı?

**Xəbər verdiyimiz kimi, Sumqayıt Kimya Sənaye Parkının rezidenti "SOCAR Polymer" MMC tibbi maskaların hazırlanmasında istifadə olunan xüsusi növ parçalar üçün xammal istehsalına başlayıb.** Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb. Bildirilib ki, "SOCAR Polymer" MMC polipropilen (PP) və yüksək sıxlıqlı polietilen istehsal edir və Sumqayıt Kimya Sənaye Parkının rezidentləri arasında ən iri investorlardan biridir. Bu günə qədər xammal xaricdən idxal olunurdu. Xammalın da ölkədə istehsal olunması tibbi maskanın satış qiymətinə təsir edəcəkmi?

**Bu barədə hafta.az-a danışan iqtisadçı ekspert Natiq Cəfərli dedi ki, tibbi maskanın Çindən gətirildiyi vaxt apteklərdə qiymət 10 qəpik civarında dəyişirdi, özümüzdə istehsal olunduqdan sonra qiymətlər bahalaşdı:**

"Bu ciddi sual doğurur, Çindən gətirildikdə daha ucuz idi, ölkədə istehsal ediləndə isə baha satılır? Düzdür, pandemiya müddətidir, onda çox az idi tələbat. Amma onu da deyək ki, tibbi maskanın maliyyəsi elə də çox deyil ki, tələbat vaxtı belə baha satılsın. Xammalın Azərbaycanda istehsal olunması nəzərdə tutulur. Xammal elə də çətin başa gələn bir şey deyil. Yəqin ki, məntiqlə götürsək, xammal da Azərbaycanda istehsal olunacaqsa qiymətlər ucuzlaşmalıdır. Iqtisadiyyatın qanunları bunu deyir. Mən indi deyə bilərəm ki, qiymət artımı olmayacaq. Ucuzlaşma mexanizmlərinin yaradılmasına ehtiyac var. Dövlət maskasız gəzməyi qadağan edirsə, əlçatanlığı da təmin edilməlidir. Bəzi ölkələrdə o cümlədən Avropada avtobuslarda ən azından pulsuz paylanır. Məhdudlaşdırıcı addımların fonunda dövlət vətəndaşlara güzəştlər də tətbiq etməlidir. Maskalar ya ucuz olmalı, ya da bəzi kateqoriyadan olan insanlara pulsuz verilməsi təmin edilməlidir".

*Ruzbeh*

### GÜNÜN SİTATI

*"Pandemiya dövründə məhz belə videokonfransların keçirilməsi post-pandemiya dövründə həmin şirkətlərin Azərbaycanla əlaqələrini daha da genişləndirmək istəyindən xəbər verir. Bu isə təbbi ki, ölkə iqtisadiyyatına olan güvənin göstəricisidir"*



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

### "HƏFTƏ İÇİ"ndən



#### Qaraçuxurda Heydər Əliyev Fondunun əkdiyi ağacların ərazisi alaq otlarından təmizlənir

Su verilmədiyindən ərazidə quruyan ağacların sayı da artıb

bax səh. 7



#### İki dövlət qurumundan meşə yanğınları ilə bağlı müraciət

Aidiyyəti orqanlar vətəndaşlar arasında yanğın təhlükəsizliyi qaydalarına riayət olunması üçün maarifləndirmə işlərinə başlayıb

bax səh. 6

### Günün fotosu...



Banqladeşdə pandemiya dövründə bərbərxana...

# Sərəncam



**Prezident İlham Əliyev Ağstafa rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.** Sərəncama əsasən, Ağstafa rayonunun Muğanlı kəndində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 2,5 milyon (iki milyon beş yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# "Biz sizin fədakarlığınızın, səxavətinizin və qəhrəmanlığınızın şahidi olduq"

**Birinci Vitse-prezident Mehriban Əliyeva sosial şəbəkədə tibb işçilərinin peçə bayramı ilə bağlı paylaşım edib.**



Hafta.az xəbər verir ki, Mehriban Əliyeva özünün "Facebook" səhifəsində yazıb: "Bu gün - 17 İyun - ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd olunur. Səhiyyə sahəsində çalışan hər kəsi bu əlamətdar gün münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Əminəm ki, bu gün bütün vətəndaşlarımız sizə sonsuz təşəkkür və səmimi minnətdarlığını bildirmək istərdi. Axı koronavirus pandemiyası ilə mübarizədə əsas yük sizin üzərinizə düşüb. Biz bir daha sizin peşəkarlığınıza əmin olduq. Biz sizin fədakarlığınızın, səxavətinizin və qəhrəmanlığınızın şahidi olduq. Siz öz doğma və yaxınlarınızdan uzaqda həyatınızı riskə ataraq xəstəliyi yenməyə kömək edir, həyatları xilas edir, insanlara inam və ümid bəxş edirsiniz.

Sizin gündəlik zəhmətiniz, peşə borcunuza sadiqliyiniz, pasiyentlərə xoş münasibətiniz, şəfqət və mərhəmətiniz ən yüksək qiymətə layiqdir! Sizin hər birinizə hünər, dözüm və ən əsası cansağlığı arzulayıram!".

# Azərbaycanda daha 329 nəfər koronavirusa yoluxdu, 127 nəfər sağaldı, 7 nəfər öldü




**Azərbaycanda 329 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 127 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.aza bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 10 991 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 6 075 nəfər müalicə olunaraq sağalıb, 133 nəfər vəfat edib, aktiv xəstə sayı 4 783 nəfərdir.

Bu gün 5 700 koronavirus testi aparılıb. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 397 min 399 test aparılıb.

# 152 Azərbaycan vətəndaşı çarter reysi ilə vətənə qayıdıb

**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi plana uyğun olaraq, Azərbaycanın milli aviadaşıyıcısı iyunun 17-də Moskvadan Bakıya daha bir çarter reysi yerinə yetirib.** "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən hafta.az-a bildirilib ki, həmin reyslə vətənə 152 Azərbaycan vətəndaşı qayıdıb. Paytaxta gəldikdən sonra sərnişinlər karantinə yerləşdiriliblər.

# Biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq

◂ əvvəli 1-ci səhifədə



Mən deyərdim ki, bizim texnologiyanın bu qeyri-adi zamanda harada ən səmərəli şəkildə istifadə oluna biləcəyini müəyyən etmək üçün son bir neçə ayda bir çox dünya liderləri ilə ünsiyyət saxlamaq imkanımız olub. Bununla bağlı Sizinlə bir qədər söhbət etmək imkanına malik olmaq istərdim. Prezident İlham Əliyev: Təşəkkür edirəm, çox sağ olun. Bu yeni reallıqda sizi yenidən görməyə çox şadam. Sizin bu videokonfransı təşkil etmək təşəbbüsünüzü qiymətləndirirəm. Çünki həyat davam edir. Baxmayaraq, əlbəttə ki, bu pandemiya bizim ənənəvi həyat tərzimizə ciddi şəkildə müdaxilə edir, bununla belə, biz özümüzü reallığa uyğunlaşdırmalıyıq. Bizim pandemiyanın öhdəsindən gəlməklə bağlı səylərimiz barədə sözlərinizə görə sizə təşəkkür edirəm. Həqiqətən də Azərbaycan bu mühüm məsələnin həllində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə adlandırılıb. Vəziyyət nəzarət altındadır. Eyni zamanda, biz nəinki təkcə daxili məsələlərə diqqət yetiririk, həmçinin qlobal miqyasda da fəaliyyət göstəririk. Azərbaycan artıq 29 ölkəyə humanitar yardım göstərib və bu proses davam edir. Biz özümüzü beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi nümayiş etdiririk.

Beləliklə, fəaliyyətimiz və gələcək planlarımıza gəlincə, əlbəttə ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda, iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb.

Bu səbəbdən, bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur. Eyni zamanda, biz ölkəmizi açmağa və həyatımızın müxtəlif sahələrinin fəaliyyətini bərpa etməyə başlayırıq. Beləliklə, ümidvaram ki, bu balanslaşdırılmış yanaşma bizə, ilk növbədə, pandemiyaya qarşı uğurlu mübarizəni davam etdirməyə kömək edəcək. Eyni zamanda, biz özəl sektora, xüsusilə pandemiyadan əziyyət çəkən sahələrə, turizm və onunla əlaqəli sahələrin bərpasına yardım edəcəyik.

İki il bundan əvvəl Bakıda keçirdiyimiz görüşdən sonra əməkdaşlığımıza gəlincə, bildiyiniz kimi, biz razılaşma imzalamışdıq. Görüşümüzdən əvvəl mənə məlumat verildi ki, on minlərlə lisenziya verilib və bu məsələ hazırda uğurla davam etdirilir. Bizim piratçılığa qarşı birgə səylərimiz yaxşı nəticələr verir. Gələcək planlarımıza gəlincə, bəlkə də bilirsiniz ki, hazırda biz rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işləyirik. Ümidvarıq ki, bu məsələdə "Microsoft"la yaxşı əməkdaşlıq edə biləcəyik. Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq. Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri aça biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq. Lakin indi bu barədə düşünmək lazımdır. Həmçinin distant işlə bağlı məsələlər... Bu da ölkə üçün olduqca vacibdir. Təxminən bunlar bizim planlarımızda diqqətimizi cəmlədiyimiz sahələrdir.

Filip Roq: Təşəkkür edirəm. Düşünürəm ki, bu, bizim əməkdaşlıq etdiyimiz əksər dünya ölkələrinin üzləşdiyi təcrübəyə və hazırkı mövqeyimizə uyğun gəlir. Təhsil mövzusuna gəlincə, zənnimcə, bu, güman ki, bizim əsas nailiyyətlərimizdən biri idi. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik. Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır. Komandalarımız və tərəfdaşlarımızın mümkün qədər tez müddətdə, bir neçə həftə ərzində hər kəsi əlaqələndirmək üçün sizin nazirlikdəki təhsil işçiləri ilə apardığı işdən qürur duyuram.

Digər ölkələrdə üzləşdiyimiz problem ondan ibarətdir ki, evlərdəki qurğuların sayı məhduddur. Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayıblar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir.

Filip Roq "Microsoft"un evdən işləmə təcrübəsi barədə məlumat verərək bildirdi ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə bu cür həll yollarının tətbiqini həyata keçirib və tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılması ilə çıxış edib. Kibertəhlükəsizlik məsələsinə toxunan Filip Roq qeyd etdi ki, pandemiya dövründə kiberhücumların sayı artıb. "Microsoft"un vitse-prezidenti bu cür hücumların qarşısının alınması istiqamətində şirkətin gördüyü işlərdən danışdı. Filip Roq "bulud hesablamaları" barədə də danışdı, onun səmərəsi və əhəmiyyəti haqqında məlumat verdi.

Vurğuladı ki, bu texnologiya artıq bir çox ölkələrdə istifadə olunur. Filip Roq məmnunluqla bildirdi ki, "Microsoft" şirkətinin süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək. O qeyd etdi ki, bu gözəl xəbəri çatdırmaqdan məmnunluq hissi keçirir. Vurğuladı ki, Azərbaycan dilində tərcümə xidmətinin istifadəyə verilməsini səbirsizliklə gözləyir.

Bunun iqtisadiyyatın qloballaşmasında, onlayn və oflayn iqtisadiyyatın aparılmasında, turizmin inkişafında rolunu vurğulayan "Microsoft" şirkətinin vitse-prezidenti Filip Roq dedi:

- Bu texnologiya, həmçinin qlobal bazara daxil olmaq üçündür. Çünki "bulud hesablamaları" elə bir qlobal bazar ərazisidir ki, buraya hər kəsin çıxışı var. Səmərəli olaraq Azərbaycandan ən yaxşı istedadlı insanlar qlobal bazarda rəqabət apara bilərlər, onların həqiqi "bulud hesablamaları" üzrə iqtisadi gücə malik olması üçün San Fransiskodan, Silikon Vadisindən fəaliyyət göstərməsinə lüzum yoxdur. Hesab edirəm ki, əsaslı dəyişikliyin arxasında iqtisadi imkanlar durur. Mənim təklifim bu məsələləri düşünmək, bizim birlikdə insanların rəqəmsal bacarıqları üzrə proqramları, startapları, istər geniş mənada, istərsə də startap mənasında necə irəli aparmağımızı nəzərdən keçirməkdən ibarətdir. Hesab edirəm ki, çoxlu imkanlar mövcuddur.

Sonra Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə çıxış edərək dedi:

- Cənab Prezident, hörmətli həmkarlar, biz "Microsfot"la bütün sahələrdə, xüsusilə açıq açar infrastrukturu ilə mübarizə, kibertəhlükəsizlik, informasiya texnologiyalarının təhsildə tətbiqi və internet əşyalar texnologiyası və kadrların təlimi kimi sahələrdə sıx əməkdaşlıq edirik. Sizin göstərişinizə müvafiq olaraq, cənab Prezident, biz hökumət agentlikləri üçün lisenziyalı proqram təminatını almaq məqsədilə 2018-ci ildə müqavilə imzaladıq. Biz şirkətin Azərbaycandakı nümayəndəliyi ilə görülər keçirdik, yeni təklifi və yeni layihələrin inkişafını müzakirə etdik. Diqqətiniz üçün təşəkkür edirəm.

Daha sonra çıxış edən Prezidentin köməkçisi Şahmar Mövsümov dedi:

- Çox sağ olun, cənab Prezident. Hesab edirəm ki, "Microsoft" şirkəti ilə çox yaxşı əməkdaşlıq qurmuşuq. Hazırda biz innovativ yanaşmalar əsasında iqtisadi inkişafa nail olmaq üçün Azərbaycanın innovasiya strategiyası üzərində işləyirik. Biz bu məsələdə də "Microsoft" şirkəti ilə əməkdaşlıq edirik. Biz "Microsoft" şirkətini daha da fəal olmağa çağırırıq. Hesab edirik ki, Azərbaycanın regionumuzda innovasiyaların mərkəzi olmaq üçün Silikon Vadisi kimi Abşeron Vadisini yaratmaq məqsədilə böyük potensialı var. Bu məsələdə biz "Microsoft" şirkətinin fəal iştirakını yüksək qiymətləndiririk. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Həmçinin onu qeyd etmək istəyirəm ki, Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır. Buna görə düşünürəm ki, bu məsələ üzərində birgə çalışmağımız əməkdaşlığımızı gücləndirə bilər.

"Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə "Multicountry" klasterinin baş meneceri Anke den Ouden Azərbaycanın müvafiq nazirlikləri ilə əməkdaşlıqdan danışdı, təmsil etdiyi şirkət tərəfindən hazırlanan innovasiyalar barədə məlumat verdi.

"Teams" proqramının təhsil işçiləri, eyni zamanda, müəllimlər üçün çox faydalı olduğunu vurğulayan Anke den Ouden dedi:

- Biz nəinki Azərbaycan dilinin dəstəklənməsinə sadiqik, eyni zamanda, "Teams" proqramının məlumatlarının dəstəklənməsini də öz öhdəliyimiz kimi görürük. Siz təhsil sahəsində ən innovativ ölkələrdən birisiniz. Biz bu işi davam etdirmək istərdik. Arxa fonda Azərbaycan məkanları, gözəl landşaft, şəhər mənzərələri var. Yaxşı şəkil çəkmək olardı.

"Microsoft Azərbaycan" şirkətinin baş meneceri Qaçay Mirzəyev ölkəmizdə şirkət tərəfindən həyata keçirilən işlərə toxundu. Vurğuladı ki, "Microsoft Azərbaycan" şirkəti öhdəlikləri milli strategiyaya uyğun həyata keçirir.

Filip Roq: Təşəkkür edirəm cənab Prezident, vaxt ayırdığınıza və dəstəyinizə görə minnətdaram. Bu, bizim üçün imkandır. Biz hamımız gələcək imkanları səbirsizliklə gözləyirik və işi davam etdirmək əzmində olan komanda kimi bilirik ki, çoxlu imkanlar var. Hər şeydən əvvəl biz Bakıya qayıtmağı həqiqətən də səbirsizliklə gözləyirik. Mən, həmçinin ötən həftə təəssüf ki, Formula 1 Qran-Prisinin başa düşülən səbəblərdən baş tutmayacağını oxuyanda kədərləndim. Ən azı sizdə virtual Qran-Pri oldu və mən onu gördüm. Sizə səhiyyə sahəsində, iqtisadi sahədə uğurlar arzulayıram, investisiya yatırılmasının davam etdirilməsində və sabahın transformasiyası üçün yol xəritəsinin yaradılmasında yardımımıza arxalanın. Biz Sizin sərəncamınızdayıq və bizim imkanlardan məqsədəuyğun saydığınız kimi istifadə edin. Biz Sizin üçün buradayıq.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Bu videobağlantıya görə təşəkkür edirəm. Bu, 2018-ci ildə Bakıda keçirilmiş görüşümüzdən sonra görülmüş işlərə nəzər salmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı imkandır. Düşünürəm, artıq 15 ildən çoxdur ki, "Microsoft" Azərbaycanda fəaliyyətə başlayandan bu yana davam edən tərəfdaşlığın böyük potensialı və böyük gələcəyi var. Biz qarşıdakı uzun illərdə tərəfdaş olacağıq. Bir daha təşəkkür edirəm. Sizi görməyə məmnun oldum. Sizə uğurlar arzulayıram. Pandemiyadan sonra sizi Bakıda görməyə ümid edirəm.

Filip Roq: Mütləq. Şəxsən təşəkkür edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

# Onlar Milli Şura deyil, xəyanətkarlar şurasıdır

**"Bu günə qədər Müasir Müsavat Partiyası üzvlərindən koronavirus pandemiyasına yoluxma qeydə alınmayıb. Şükür Allaha ki, belə bir problemimiz yoxdur. Dəyirmi stol arxasında əyləşib iclaslarımızı keçiririk.**

Elə bir problem yaratmır. Rayon təşkilatlarımızla görüntülü video vasitəsi ilə əlaqə saxlayırıq. Tapşırıqlarımızı veririk. Yoluxma olmadığı üçün hazırda partiyada çox yüksək təşkilatlanma işi gedir. Qurultaya hazırlıq işləri görülür".

**■ Bunu hafta.az-a açıqlamasında Müasir Müsavat Partiyasının (MMP) sədri Hafiz Hacıyev deyib. MMP sədri bildirib ki, bütün işlərə, ara məsafələrinin qorunmasına və bu kimi tələblərə qanunlar çərçivəsində riayət etməklə, bütün işlər öz qaydasında gedir:** "Qurultayın vaxtı hələ ki, dəqiq deyil. Koronavirusla əlaqədar toplaşmağa icazə verilmir. Bəzi rayon təşkilatlarında konfranslar dayanıb. Koronavirusa qədər 32 rayon təşkilatımızda konfrans keçirilib. Qalan rayon təşkilatlarında da konfranslar baş tutacaq. Qurultaya nümayəndələr seçiləndən sonra uzağı sentyabr-oktyabr aylarında qurultayımız baş tutacaq. Qurultayda xarici diplomatların, millət vəkillərinin, Prezident Adminstrasiyasının yeni yaranmış Partiyalarla İş Şöbəsinin rəhbərliyinin iştirakı gözlənilir".



Hafiz Hacıyev Milli Şura üzvlərinin neftin qiymətinin düşməsi ilə bağlı səsləndirdiyi ironiya dolu fikirlərə də münasibət bildirib: "Onlar Milli Şura deyil, xəyanətkarlar şurasıdır. Onların təşkilatında beş-altı nəfər cəmləşib. Bu xəyanətkarlar şurasının başçısı Vaşinqtona gedirsə, özünə bığ qoyub həmin bığı rəngləyirsə, bunlardan hansı kişiliyi gözləmək olar?! Onlar həmişə Azərbaycana xəyanət edən insanlar olublar. Bu gün də həmin yolu tutublar. Düşünürəm ki, bu gün onlara inanan yoxdur. Onların gələcəyi də, perspektivi də yox dərəcəsindədir. Gələcəkdə də xalq onları qəbul etməyəcək. Onlar xalq qarşısında çıxış edə bilməzlər. Onların videoiclaslarına baxın, biri təpəsi üstə yatır, o biri böyrü üstə durur. Bu insanlarla Azərbaycanın gələcəyinə ümid bağlamaq yersizdir".

MMP sədri bildirb ki, rəhbərlik etdiyi partiyadan onlar haqqında zaman-zaman verilən bəyanatlar öz yerini tutub: "Hamısı səviyyəsiz insanlardır. Orada kimlər var?! Hazırda Milli Şurada rayon partiya komitələrindən, hərbi hissələrdən qovulmuş adamlar, vaxtilə parlamentdə gedib Avropa Şurası Parlament Assambleyasında Azərbaycanı təmsil edən Gültəkin Hacıbəyli".

✍ *Tural*

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Biz qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik

***Dünya Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti xanım Anna Byerde, Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və bankın digər nümayəndələri arasında videokonfrans keçirilib. Videokonfrans iştirakçılarını salamlayan Prezident İlham Əliyev dedi:***

- Sizi görmək çox xoşdur.

Anna Byerde: Təşəkkür edirik. Qarşılıqlıdır. Günortanız xeyir.

Prezident İlham Əliyev: Günortanız xeyir. Sizin sabahınız xeyir. Sizdə səhərdir.

Anna Byerde: Bəli.

Prezident İlham Əliyev: Şadam ki, gələcək planlarımız barədə danışmaq və ola bilsin ki, artıq görülmüş işlərə nəzər salmaq üçün imkanımız var. Biz Dünya Bankı ilə əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Azərbaycana və sizin maliyyə dəstəyinizlə həyata keçirdiyimiz mühüm layihələrə göstərdiyi davamlı dəstəyə görə Dünya Bankına çox minnətdarıq. TANAP-a göstərdiyiniz dəstəyə görə xüsusi təşəkkürlər. Yəqin ki, bildiyiniz kimi, Cənub Qaz Dəhlizi layihəsinin icrası sona yaxınlaşır. Ümidvarıq ki, bütün tikinti işlərini bir neçə aya tamamlayacağıq. Əlbəttə ki, Dünya Bankının Cənub Qaz Dəhlizinin ən mühüm hissələrindən olan TANAP-ın icrasına verdiyi töhfə yüksək qiymətləndirilir. Sözsüz ki, bu, digər bankların da bu mühüm layihəni dəstəkləməsi üçün yaxşı siqnal oldu.

Mən, həmçinin artıq icra edilmiş layihələri nəzərdən keçirirdim. Onlar bir çox sahələri əhatə edir. Biz çox mühüm töhfəyə görə olduqca minnətdarıq, ümumilikdə layihələrə 3,5 milyard dollardan çox vəsait ayrılıb. Əlbəttə, bizim gələcək üçün daha çox planımız, ölkənin müasirləşdirilməsi, iqtisadiyyatımızın qeyri-enerji sektorunun inkişaf etdirilməsi və sözsüz ki, infrastruktura investisiya yatırılmasının davam etdirilməsi ilə bağlı planlarımız var. Beləliklə, mən əminəm ki, gələcəkdə çox müsbət əməkdaşlığımız olacaq.

Mən, həmçinin özünüməşğulluq proqramı ilə bağlı bizə dəstək göstərilməsinə dair müraciətimə dərhal cavab verdiyinə görə Dünya Bankına xüsusi minnətdarlığımı bildirmək istərdim. Həmin müraciət 2019-cu ilin yanvarında təqdim olunmuşdu və bir ildən də az müddət ərzində biz artıq bütün hazırlıq işlərini tamamlamışıq. Mənə məlumat verilib ki, Dünya Bankının özünüməşğulluq layihəsində iştirakı təxminən 100 milyon ABŞ dolları həcmində olacaq. Buna görə təşəkkür edirik. Bu il biz bu proqramla 15 minə yaxın adamı əhatə etməyi planlaşdırırıq və əlbəttə, ki, Dünya Bankı tərəfindən əlavə maliyyələşdirmə yüksək qiymətləndirilir və alqışlanır.

Anna Byerde: Təşəkkür edirəm, Zati-aliləri. İlk növbədə, bu görüşü təşkil etdiyinizə görə çox sağ olun. Mən Sizinlə görüşməkdən həqiqətən də məmnunam. Mən Sizinlə Azərbaycanda görüşməyi çox istərdim. Amma dünyada baş verənləri nəzərə alsaq, hələ ki, görüşləri bu cür keçirməli olacağıq. Lakin çox yaxın gələcəkdə Sizinlə Azərbaycanda görüşəcəyimə ümid edirəm. Mən, həmçinin tərəfdaşlığa görə və birlikdə bir çox sahələrdə işlədiyimiz komandaya minnətdarlığımı bildirmək istərdim. Əlaqələrin necə möhkəm olduğunu görməkdən məmnunam. Tərəfdaş kimi Dünya Bankına olan etimadınıza görə Sizə çox təşəkkür edirəm. Mən bu vəzifənin icrasına başladığımdan bu yolu davam etdirməyimizi səbirsizliklə gözləyirəm. Bir daha buna görə təşəkkür edirəm.

Həmçinin mən Dünya Bankı adından Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasına verdiyi töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Bu addım çox yüksək qiymətləndirilir. Sizin ən yoxsul ölkələr üçün olan fondumuzu dəstəkləməyiniz bizim tərəfimizdən həqiqətən də çox yüksək qiymətləndirilir. Düşünürəm ki, bu, bizim əlaqələrimizi daha irəliyə aparır. Buna görə həqiqətən də minnətdarlığımı bildirmək istərdim. Mənim üçün burada olmaq məmnuniyyətdir. Mən təxminən 5 illik fasilədən sonra regiona qayıdıram. Geri qayıtmaq möhtəşəmdir. Mən Dünya Bankındakı fəaliyyətimin əhəmiyyətli bir hissəsini bu regionda keçirmişəm. Bu, mənə çox yaxın olan regiondur. Ötən dəfə regionda olarkən təxminən 4 ay Azərbaycandakı proqrama birbaşa nəzarət etmək mənə nəsib olub. Bu müddət ərzində, həmçinin ölkə ilə tərəfdaşlıq çərçivəsi təsdiq olunub. Mən son bir neçə ildə bu tərəfdaşlıq çərçivəsinin həyata keçirilməsini görməkdən çox məmnun oldum. Mən TANAP layihəsinin ilkin mərhələlərində iştirak etmişəm, ona görə də ona yaxşı bələdəm. Mən bu layihə münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm. Bu, bizim buna bənzər nəyisə dəstəkləyə bilməyimiz və həm kredit əməliyyatlarını, həm də birgə apardığımız işimizi nə dərəcədə yaxşı mənimsədiyimizi göstərən həqiqətən də flaqman layihədir. Mən bir daha təşəkkürümü bildirmək istəyirəm. Birlikdə əldə etdiyimiz yaxşı irəliləyişi davam etdirməyi və onu daha yüksək səviyyələrə qaldırmağı səbirsizliklə gözləyirəm. Mən, həmçinin qeyd etməliyəm ki, Azərbaycanla bağlı məlumatları oxuyarkən ölkənin "Doing Business" hesabatında reytinqini görməkdən həqiqətən də məmnun olmuşam. Mən bu münasibətlə də Sizi təbrik etmək istəyirəm. Düşünürəm ki, bu, dəyişikliyin daha bir sübutudur. Siz qeyd etdiyiniz kimi, iqtisadiyyatınızın şaxələndirilməsi üçün "Doing Business"də iqtisadiyyatın inkişafı baxımından yaxşı göstəricidir.

Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə yeni təyin olunan vitse-prezidenti Anna Byerde bildirdi ki, koronavirusun təsirinin olduğu bir dövrdə yaşayırıq. O, ölkəmizdə icra olunan özünüməşğulluq layihəsinə toxundu, kənd təsərrüfatı sahəsində gələcək əməkdaşlıqdan danışdı.

Dünya Bankının ölkəmizdəki rəhbəri Navid Hassan Naqvi 4 il Azərbaycanda fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi. Vurğuladı ki, fəaliyyətinin başa çatması ilə bağlı ölkəmizi zəngin təəssüratlarla tərk edir. O, dövlətimizin başçısına Dünya Bankının ölkəmizdəki fəaliyyətinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, Navid. Əlbəttə, təəssüf edirik ki, siz bizi tərk edirsiniz. Eyni zamanda, vaxtın necə sürətlə keçdiyini görürük. Çünki mən görüşdüyümüz ilk vaxtı - sizin Azərbaycanda yenicə fəaliyyətə başladığınız vaxtı xatırlayıram. Artıq 4 il keçib. Biz anlayırıq ki, Dünya Bankının əməkdaşları öz yaşayış və iş yerlərini çox tez-tez dəyişirlər. Lakin mən sizə "Çox sağ ol" demək istəyirəm. Çünki bizimlə olduğunuz bütün bu müddət ərzində siz həqiqətən də əməkdaşlığımıza və vacib layihələrin həyata keçirilməsinə töhfə verdiniz. Gələcək fəaliyyətinizdə sizə uğurlar arzu edirəm. Sizi yenidən Bakıda görəcəyimə ümid edirəm. Bizim qonağımız kimi və ya ola bilsin ki, yeni vəzifədə. Əməkdaşlıq üçün təşəkkür edirəm.

Sonra Dünya Bankının Azərbaycana yeni təyin olunan rəhbəri Sara Maykl çıxış edərək dedi:

- Salam, Zati-aliləri. Mən bu vəzifəyə təyin olunmaqdan həqiqətən şərəf hissi keçirirəm. Mən hökumətlə birgə çalışmağı, tərəfdaşlığımızı dərinləşdirməyə davam etməyi səbirsizliklə gözləyirəm. Mən əvvəllər Azərbaycanda və regionda çalışmışam. Bura artıq elə bir ölkədir ki, o, mənim ürəyimə yaxındır. Mən bu təcrübədən çıxış edərək irəliyə doğru addımlayacağımıza ümid edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Pandemiya bitən kimi biz sizi gözləyirik. Biz yenidən sizi qarşılamaqdan məmnun olardıq. Bizə yad olmamağınız düşünürəm ki, bizim üçün çox yaxşıdır. Siz bizim ölkə ilə tanışsınız. Bizim etdiklərimizin hamısını bilirsiniz. Çünki hazırda - iqtisadi islahatlarımızın bu mərhələsində sizin Azərbaycandakı fəaliyyətiniz bizə kömək edəcək ki, əməkdaşlığı müvafiq qaydada planlaşdıraq və artımı, məşğulluğu yaradan sahələrə diqqəti cəmləyək. Siz bizim şaxələndirmə, sənaye inkişafı ilə bağlı planlarımızdan məlumatlısınız. Ona görə də əminəm ki, siz Bakıda çox məşğul olacaqsınız.

Mən bir daha Dünya Bankının Azərbaycan üçün etdiyi bütün işlərə görə minnətdarlığımı bildirmək istərdim. Bizim "Doing Business" reytinqində irəliləyişlə bağlı xoş fikirləriniz üçün minnətdaram. Bilirsiniz ki, "Doing Business"dəki mövqeyimiz bizim üçün çox uğurlu sahələrə diqqəti cəmləmək üçün bir növ motivasiya idi. Ona görə də hökumətin, administrasiyamın və müvafiq nazirliklərin üzvlərindən ibarət xüsusi komissiya yaradıldı. Biz xüsusilə geridə qaldığımız sahələrə diqqəti yetirirdik. Biz qısa müddət ərzində çox əsaslı irəliləyişə nail ola bildik. Əlbəttə, bu, ölkədəki biznes mühitini yaxşılaşdırır, daha çox investisiyalardan faydalanmağa imkan verir. Təbii ki, biz qeyri-enerji sektoruna investisiya yatırılmasında maraqlıyıq. Bizim üçün hazırda prioritet olan məsələlərə gəlincə mən ümumi şəkildə indiki pandemiya dövründə iki əsas prioritetin olduğunu deyərdim. Çünki biz ilə yaxşı iqtisadi artım göstəriciləri, yaxşı formada olan bütün iqtisadi parametrlərlə birlikdə çox ümidverici başlanğıc etdik. Lakin bu ilin 5 ayı göstərir ki, bizim iqtisadiyyatımız 1,7 faiz azalıb. Bu, çox deyil. Lakin bu, azalmadır. Amma ümidverici fakt ondan ibarətdir ki, bizdə kənd təsərrüfatında artım qeydə alınıb - 3 faizdən çox. Qeyri-enerji sənayesində artım 14 faiz təşkil edib. Ona görə də gələcək üçün bizim nəzərə aldığımız iki əsas məsələ şaxələndirməyə əsaslanan iqtisadiyyatın davamlı inkişafına nail olmaqdır. İkincisi isə, iqtisadiyyatın artımı daha çox iş yerləri ilə müşayiət olunmalıdır. Çünki Azərbaycan əhalisi artan ölkədir. Biz artıq 10 milyondan çoxuq. Əhali artır. Ona görə də xalqımız üçün daha çox iş yerlərinə ehtiyacımız var. Xüsusilə də indi bu yeni texnologiyalarla bir çox iş yerləri artıq bazarda deyil. Yeni işlər peyda olur. Lakin bu yeni iş yerləri üçün bizim insanların xüsusi bacarıqları olmalıdır. Ona görə də bu iki əsas amil bizim hər zaman gündəliyimizdədir. Birgə çalışdığımız digər layihələr arasında artıq proqramımızın mövcud olduğu özünüməşğulluq sahəsindən savayı, digər vacib sahələrdən biri kimi icbari tibbi sığortanın adını qeyd edərdim. Biz ölkə üzrə proqramı yanvardan başlamağı planlaşdırırdıq. Lakin koronavirus səbəbindən biz bunu gələn ilin yanvarına qədər təxirə salmalı olduq. Ancaq artıq proqramın əhatə etdiyi bir neçə şəhərimiz var. Nəticələrimiz yaxşıdır. Ona görə də il bitməzdən qabaq düşünürəm ki, sizinlə müvafiq qaydada bu sistemin necə strukturlaşdırılmasının üzərində işləməyə davam edəcəyik. Çünki bu, bizim üçün yenidir. Bir məsələ ondan ibarətdir ki, bu 1, 2 və 3 şəhərdə tətbiq olunur. İkinci məsələ isə ondan ibarətdir ki, bütün ölkədə tətbiq olunacaq.



Ciddi şəkildə diqqəti cəmlədiyimiz sahələrdən biri də suvarma və su təchizatı ilə bağlı məsələlərdir. Mən gələcək su idarəetmə sistemlərimiz üçün yol xəritəsini yaratmaq məqsədilə Baş Nazirin müavininin rəhbərlik etdiyi xüsusi hökumət komissiyası yaratmışam, bir çox nazir bu komissiyanın üzvüdür. Çünki təəssüf ki, infrastrukturun çox hissəsinin istismar müddəti bitib. Bəzi ərazilərdə bizim 40, hətta 50 faiz su itkimiz olur, təsəvvür edin, su resurslarının çatışmadığı bir ölkədə. Xüsusilə ötən il bizdə ciddi quraqlıq oldu. Bu il də həmçinin. Bilirsiniz, sudan bu cür sui-istifadə qəbuledilməzdir. Ona görə də hökumət bunun üzərində çalışır. Biz ilk addımlarımızı 1 və ya 2 ay ərzində atmağı planlaşdırırıq. Ona görə də maliyyələşmə, nəzarət və məsləhətləşmə baxımından mən Dünya Bankını bizim tərəfdaşımız olmağa dəvət etmək istərdim. Çünki sizin bu sahədə çox böyük təcrübəniz var. Ona görə də bu sahənin gündəliyimizə daxil ediləcək məsələlər arasında adını çəkərdim.

Siz, həmçinin kənd təsərrüfatını qeyd etdiniz. Biz sizinlə bu sahədə çalışırıq. Biz kənd təsərrüfatının rəqabətqabiliyyətliliyini artırmalıyıq və necə irəliləməyimizlə bağlı anlayışımız olmalıdır. Çünki biz təkcə öz resurslarımızla ehtiyaclarımızı təchiz etməli deyilik, həm də daha çox ixrac potensialımız olmalıdır. Bunun üçün biz mövcud ixrac bazarlarına da daha çox cəlb olunmalıyıq və yeni bazarlar haqqında düşünməliyik. Bunlar hamısı sonuncu reabilitasiya mərhələsində olan nəqliyyat və logistik infrastrukturla bağlıdır. Dünya Bankı sayəsində biz bu sahədə çox vacib layihələr icra etmişik. Hazırda biz əsasən Şimal-Cənub nəqliyyat dəhlizi üzərində çalışırıq. Çünki Şərq-Qərb artıq həyata keçirilib. Paytaxt şəhərdən şimal və cənub sərhədlərinə qədər dəmir yolu şəbəkəmizin reabilitasiyası... Dəmir yolu mövcuddur, lakin yeni yük həcmlərinə görə bizim müasirləşməyə ehtiyacımız var. Beləliklə, bu layihə də bizim gündəmimizə daxildir.

Mən, həmçinin məhkəmə sistemimizə dəstəyinizə görə minnətdarlığımı bildirmək istərdim. Mən şəxsən yeni məhkəmə binalarımızın açılış mərasimində iştirak etmişəm. Təkcə binalar deyil, həmçinin sistemlər, texnologiyalar. Bütün bu layihələr Dünya Bankının dəstəyi ilə həyata keçirilmişdir. Pandemiya ilə əlaqədar vəziyyəti nəzərə alaraq təbii ki, postpandemiya dövrü böhranını idarə etmək üçün bizim ölkə strategiyasına ehtiyacımız var. Çünki bizim iqtisadiyyatımızın bəzi sahələri ciddi şəkildə zərər çəkdi. Xüsusilə də yaxşı nəticələrimiz olan və son 4 ildə artımın olduğu turizm sahəsi. Həqiqətən Azərbaycan turizm xəritəsində maraqlı istiqamətə çevrilib. Beləliklə, pandemiyadan sonra biz bu sektoru canlandırmaq və Azərbaycanı yenidən xarici turistlər üçün cəlbedici etmək istiqamətində çox çalışmalıyıq. Çünki turizm sərbəst konvertasiya olunan valyuta yaradan sektorlardan biridir. Qeyri-neft və qeyri-qaz ixracından gələcək daha çox sərbəst konvertasiya olunan valyuta ehtiyatlarına ehtiyacımız var. Ona görə də kənd təsərrüfatı, turizm, texnologiya düşünürəm ki, bizim diqqətimizi cəmlədiyimiz əsas sahələr olacaq.

Sonra Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış edərək dedi:

- Təşəkkür edirəm cənab Prezident. Hörmətli xanım vitse-prezident, hörmətli həmkarlar. Mən Dünya Bankı və Azərbaycan arasında uzunmüddətli məhsuldar əməkdaşlığın tarixçəsini qeyd etmək istəyirəm. Bu əməkdaşlığa ötən 15-17 il ərzində təkan verilmişdir və bu müddətdə Azərbaycan iqtisadiyyatı 3 dəfə artmışdır. Yoxsulluq probleminin öhdəsindən gəlinmişdir.

Cənab Prezident, icazənizlə hansı növ antiböhran tədbirlərinin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan bu böhranla əlaqədar çağırışlarla - xüsusilə əsas ixrac etdiyi məhsulların qiymətlərinin düşməsi ilə bağlı çağırışlarla üzləşmişdir. Lakin biz makroiqtisadi sabitliyi qoruya bilmişik, inflyasiyanın səviyyəsi təqribən 3 faizdir. Milli valyutanın kursu sabitdir və mübadilə kursu üzərində heç bir təzyiq yoxdur. Proqnozlara görə, bu ilin sonunadək çox cüzi bir resessiya olacaq. Lakin maliyyə sektorunda vəziyyət çox sabitdir və həmçinin bəzi qeyri-sabit bankların sistemdən çıxarılmasına nail olmuşuq. Həmçinin cənab Prezident, qorunan əmanətlərin sığortalanması üzrə qanunun müddəti artırılmışdır və maliyyə sektorunda sabitliyin qorunması üzrə bütün addımlar atılacaq.

Elman Rüstəmov Dünya Bankı ilə potensial əməkdaşlıq sahələrindən danışdı. Qeyd etdi ki, keçən il Dünya Bankı ilə yeni milli iqtisadi inkişaf strategiyasının hazırlanması üzrə danışıqlara başlanıb. Hazırda biz 2016-2020-ci illəri əhatə edən ölkə tərəfdaşlıq strategiyaları əsasında çalışırıq və bunun da müddəti cari vəziyyət nəzərə alınaraq bir il artırılmışdır. Mərkəzi Bankın sədri, həmçinin maliyyə sektorunun qiymətləndirilməsi proqramı üzərində çalışmağın hər iki tərəf üçün faydalı olacağına əminliyini ifadə etdi.

Sonra Prezidentin köməkçisi Natiq Əmirov çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident. Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı COVID-19 qlobal pandemiyası ilə əlaqədar olaraq üçqat fiskal şoka məruz qalmışdır. Birincisi, qlobal ticarətin və artımın azalması nəticəsində neftin qiyməti kəskin şəkildə aşağı düşdü. İkincisi, neftin qiymətinin düşməsindən sonra pandemiya ilə əlaqədar karantinə qədər gəlirlərin, həmçinin iqtisadi və investisiya fəaliyyətinin azalması müşahidə olundu. Üçüncüsü, pandemiyaya görə səhiyyə, sosial və maliyyə sektorlarına dəstək xərcləri artmışdır. Bu mənfi vəziyyətə baxmayaraq, vergi və gömrük orqanlarının güclü fəaliyyəti sayəsində bu ilin ilk beş ayı üzrə büdcənin icrası müsbət olmuşdur. Büdcə profisiti 1,1 milyard manat təşkil etmişdir.

Natiq Əmirov bildirdi ki, gələcəkdə büdcə siyasəti sosial müdafiə və iş yerləri ilə makroiqtisadi sabitliyə dəstəyin göstərilməsi və neft fondunda rahat rezervlər səviyyəsinin saxlanılması arasında optimal balansı tapmaqdan ibarət olan əsas hədəfə cavab verməlidir. O, bunun üçün qaydaları hazırlamaq və optimal balansı tapmaq məqsədilə Dünya Bankı ilə əməkdaşlığı davam etdirməyin məqsədəuyğunluğunu vurğuladı. Xanım Anna Byerde ölkəmizi yaxşı makroiqtisadi və fiskal göstəricilərə malik olması münasibətilə təbrik etdi. O, Azərbaycanın koronavirusun vura biləcəyi ziyanı minimuma endirmək üçün müvafiq tədbirlər həyata keçirdiyini dedi və bunu yüksək qiymətləndirdiklərini bildirdi. Vitse-prezident ölkəmizlə strategiya və sosial-iqtisadi inkişaf proqramı üzrə birgə əməkdaşlığa hazır olduqlarını vurğuladı. Anna Byerde qeyd etdi ki, iqtisadiyyatın şaxələndirilməsi və sosial sektora diqqətin artırılması çox vacibdir və Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. O, Dünya Bankının tibbi sığorta, su sektoru, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, turizm, texnologiyalar və digər sahələrdə də ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Sonra Bankın Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus çıxış edərək dedi:

- Zati-aliləri cənab Prezident, Sizi yenidən görmək həqiqətən çox xoşdur. Sizinlə görüşmək üçün bu, üçüncü fürsətdir və hər görüşümüzdə tərəfinizdən verilən yüksək səviyyəli strateji yönləndirmə və tövsiyələriniz bizim gələcək əməkdaşlığımız üçün gözəl yol xəritəsi təşkil edir.

Bizim uzunmüddətli tərəfdaşlığımızı bir daha vurğulamaq istəyirəm. Bu, artıq dələlərlə qeyd edilib. Biz müstəqilliyinin ilk illərindən, həmçinin 2008-ci və 2011-ci illərdə dünyada yaşanan iqtisadi böhran zamanı Azərbaycanın yanında olmuşuq. Biz COVID-19 pandemiyası dövründə də Sizin güclü tərəfdaşınız olmaq niyyətindəyik. Cənab Prezident, istəyirəm biləsiniz ki, biz bütün bilik və maliyyə resurslarımızla Sizin yanınızdayıq və hər hansı digər bir dəstəyə ehtiyacınız olduğu təqdirdə biz buna hazırıq.

Burada eşitdiyim tövsiyələrinizlə bağlı qeydlərimi bildirmək istəyirəm. Birincisi strategiyaya aiddir. Burada bizim şaxələndirmə və inkişafla bağlı misilsiz imkanımız var və Siz də bunu qeyd etdiniz. Mən dövlət investisiyaları yönümlü modeldən özəl sektorun inkişafı modelinə keçidi nəzərdə tuturam. Bu, Azərbaycana yeni bir mövqedən çıxış etməyə imkan verə bilər. Biz hökumətinizlə ilkin müzakirələrə başlamışıq və bizim vitse-prezidentin qeyd etdiyi kimi, bunu saziş formasında rəsmiləşdirməyimiz işlərin qısa zamanda həyata keçirilməsini mümkün edəcək.

Zənnimcə, bugünkü qlobal böhran inkişafa bir növ yeni təkan verə bilər. Beləliklə, cəmiyyətdə sosial razılığın bərqərar olunması və insanların buna inamı təmin edilə bilər. İqtisadi artım və məşğulluq məsələləri istənilən strategiya üçün olduqca əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm. Biz uzun illər ərzində hər iki mövzu üzərində geniş şəkildə çalışmışıq.

Dünya Bankı və şəxsən mən yeni iş yerlərinin yaradılması üzərində uzun müddət çalışırıq. Biz 20 il ərzində Dünya Bankı tərəfindən məşğulluq sahəsində icra olunmuş layihələri yenidən təhlil edərək burada özəl sektorda dayanıqlı iş yerlərinin yaradılmasında yardımçı ola biləcək 3-4 mühüm amili müəyyən etdik. Birincisi, maliyyə resurslarının əlçatanlığı, yəni, inkişaf gündəliyini dəstəkləyən maliyyə sektorunun mövcudluğudur. İkincisi, bazarlara çıxışdır. Bu gün qlobal səviyyədə təchizat zəncirində mövcud olan gərginlik Azərbaycana yeni mövqedən çıxış etməyə, Avropa və Asiya arasında bağlantı yaradaraq həlledici rola malik olmağa imkanı verə bilər.

Sebastian Molineus böyük və kiçik şirkətlərə istehsal gücünün və səmərəliyin artırılması məqsədilə müasir texnologiyaların geniş tətbiqində ölkəmizlə əməkdaşlığı davam etdirmək, həmçinin Azərbaycanda dünya səviyyəli səhiyyə sisteminin yaradılması prosesinə, ölkəmizdə su ehtiyatlarının güclü idarəçiliyi, infrastrukturun gücləndirilməsi və su ehtiyatlarından tam şəkildə səmərəli istifadəyə yardımçı olmaq niyyətlərindən danışdı. O, Prezident İlham Əliyevin turizm, kənd təsərrüfatı sahələrinə diqqətin yönəldilməsi barədə tövsiyələrinin də nəzərdə saxlanılacağını qeyd etdi.

Prezident İlham Əliyev: Görülən işlər və gələcək planlarımızla bağlı dediklərinizə görə təşəkkür edirəm. Pandemiya dövründə Azərbaycan müsbət nəticələr göstərir. Hesab edirəm ki, bu, son vaxtlar başlanılmış çox ciddi islahatların yeni mərhələsi sayəsində mümkün olmuşdur. Burada əsas məsələ kölgə iqtisadiyyatının və qeyri-rəsmi məşğulluğun azaldılmasıdır. Çünki icbari tibbi sığorta yüksək səviyyəli səhiyyə xidmətləri təqdim etməklə yanaşı, qeyri-rəsmi məşğulluqla mübarizədə də bizə yardımçı olacaq. Yəni, hələ də kölgədə fəaliyyət göstərənlər ağ iqtisadiyyata keçməli olacaqlar.

Bu, vacib nailiyyətdir və sizə bir rəqəm deyə bilərəm. Ötən il bizim vergi və gömrük orqanlarımız proqnozdan 600 milyon dollar əlavə vəsait toplayıblar. Əsasən də kölgə iqtisadiyyatının azaldılması sayəsində və bu proses davam edir. Cari ilin ilk 5 ayı ərzində vergi və gömrük orqanları proqnozdan 400 milyon manat artıq vəsait toplayıb. Bu, ticarət münasibətlərinin ciddi zərər gördüyü vaxtda baş verib.

Artıq qeyd edildiyi kimi, bizim milli valyutamız sabitdir və zənnimcə, bu da makroiqtisadi sabitliyin mühüm amillərindəndir. Biz anlayırıq ki, makroiqtisadi sabitlik olmadığı təqdirdə bütün səylərimiz sarsılacaq. Biz işsiz, aztəminatlı və pandemiyadan əziyyət çəkən sahələrdə, məsələn, turizm və digər sahələrdə çalışan yüz minlərlə insanın dəstəklənməsi üçün 2 milyard dollar həcmində sosial və iqtisadi paket təqdim etmişik. Təkcə kiçik sahibkarların sayı 600 minə yaxındır.

Beləliklə, biz həmin vəsaitləri pandemiyadan əziyyət çəkmiş insanlara lazımi dəstəyin göstərilməsi üçün ayırmışıq. Qeyd edildiyi kimi, bank sistemində, həmçinin dəyişikliklər gedir və bəzi bankların lisenziyası ləğv edilmişdir. İnsanların sığortalanmış bütün əmanətləri hökumət tərəfindən təmin edilmişdir. Həmçinin bildirmək istərdim ki, pandemiya zamanı biz qlobal səviyyədə çox fəal çalışdıq. Biz artıq 29 ölkəyə humanitar yardım göstərmişik. Eyni zamanda, hazırda biz 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik edirik və həmin təşkilatın onlayn Zirvə görüşünü keçirdik. Həmin tədbir çox uğurlu oldu. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində maliyyə yardımı göstərmişik. Bu, bizim beynəlxalq öhdəliklərimizin bir hissəsi idi. Strategiyanın formalaşdırılmasına gəldikdə, biz Dünya Bankının iştirakını çox alqışlayırıq. Fikrimcə, bu, gələcəyimizin planlaşdırılmasında bizə elə yardım edəcək ki, hədəfləri müəyyənləşdirəndə onlara nail ola bilək. Bir sözlə, strategiya məzmuna uyğun çox konkret olmalıdır və onun sayəsində biz dayanıqlı inkişaf məqsədlərinə və enerji sektorundan asılılığın azaldılmasına nail olmalıyıq. Beləliklə, Cənub Qaz Dəhlizi istismara veriləndən sonra əlbəttə ki, Azərbaycanın enerji sektoru daha çox potensial qazanacaq. Qeyri-enerji sektoru onunla rəqabət apara bilməyəcək, lakin hesab edirəm ki, iqtisadiyyatımızın əsas aparıcı qüvvəsi özəl sektor olacaq. Bu baxımdan, mən Dünya Bankı nümayəndələrinin söylədikləri ilə tam razıyam.

Səhiyyə sektoruna gəldikdə, fikrimcə, son on altı il ərzində səhiyyə infrastrukturuna yatırdığımız sərmayələr, hazırda bizə koronavirusla mübarizə aparmaq imkanını yaratdı, çünki səhiyyə sistemimiz daha çox insanları müalicə etməyə qadirdir. Əfsuslar olsun ki, sərt məhdudiyyətlərin aradan qaldırılmasından sonra ölkəmizdə yoluxan insanların sayında artım var. Lakin səhiyyə sistemimiz bunun öhdəsindən gəlir. Ümid edirəm ki, gələcəkdə də bu imkanlar olacaq. Bir sözlə, səhiyyə sistemi yaxşı keyfiyyətini göstərməkdədir. Lakin əlbəttə ki, bizim ciddi təkmilləşdirməyə ehtiyacımız var və bunun üzərində birmənalı olaraq işləyəcəyik.

Su layihələri haqqında söylədiyim məqamlara qayıdaraq, cənab Molineisun söylədiyi "su təhlükəsizliyi" termini ilə tam razıyam. Bu, həqiqətən də bizim üçün təhlükəsizlik məsələsidir. Tam razıyam ki, biz bu sahəyə görə məsuliyyət daşıyan şirkətlərimizin və dövlət təşkilatlarının strukturunun lazımi qaydada formalaşdırılması məqsədilə təsisat əsasları üzərində çalışmalıyıq. Biz infrastruktura ciddi sərmayələr qoyacağıq. Bunlar bizim builki dövlət sərmayə proqramında əks olunub. Ümid edirik ki, Dünya Bankı ilə birgə infrastruktur və qənaət sahəsində biz daha geniş miqyasda işləyə bilərik. Burada qənaətə yeni texnologiyaların tətbiqi və lazımi idarəçilik nəticəsində nail olunması nəzərdə tutulur.

Qaldırmaq istədiyim digər bir məsələ də var və o, daim bizim gündəliyimizdədir. Həmin məsələ ətraf mühitin qorunmasıdır. Bu, xüsusən də Bakı və Abşeron yarımadasına aiddir. Həmin yerlərdə əsrlər boyu neft və qaz hasilatı bizim üçün çox ciddi çətinliklər yaratmışdır. Biz böyük həcmdə təmizləmə əməliyyatlarını aparırıq, lakin ola bilsin, bizə daha çox dəstək lazımdır. Bu, xüsusən də texnologiya və məsləhətlər baxımdan veriləbiləcək dəstəyə aiddir. Buna görə, fikrimcə, gələcək əməkdaşlığımızın sahələrindən biri Abşeronda və Bakıda neftlə çirklənmiş sahələr üzrə ekoloji layihələrin həyata keçirilməsi ola bilər. Anna Byerde indiki gərgin bir dövrdə keçirilən bu görüşdə faydalı müzakirələrə imkan yaratdığı üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Dünya Bankı təmasların qurulmasına, Azərbaycanda islahatların sürətlənməsinə bundan sonra da dəstək verməkdən çox məmnun olardı.

Prezident İlham Əliyev: Sağ olun, xanım vitse-prezident. Təşəkkür edirəm, əziz dostlar. Bu təşəbbüsə görə minnətdaram. Mən apardığımız müzakirədən çox razı qaldım. Fikrimcə, biz bütün mühüm sahələri əhatə etdik. Bu gün fikir mübadiləsi apardığımız ideyaları icra etməyə başlayacağıq. Ümid edirəm ki, gələcəkdə bizim əməkdaşlığımız keçmişdəki kimi uğurlu olacaq. Əlbəttə, zaman keçir, yeni çağırışlar və prioritetlər ortaya çıxır. Lakin hesab edirəm ki, müzakirə etdiyimiz bütün məsələlər birgə səylərimiz sayəsində reallığa çevrilə bilər. Azərbaycana verdiyiniz davamlı dəstəyə və bu imkanlara görə bir daha minnətdaram. Sizi pandemiya bitən kimi Bakıda görməyimə ümid edirəm.

Anna Byerde: Sağ olun.

Prezident İlham Əliyev: Minnətdaram. Sizə uğurlar arzulayıram, sağ olun.

# Sağlam yaşamaq istəyiriksə, mütləq qaydalara əməl etməliyik

***Əhalisinin sayına görə, Çindən sonra dünyanın ikinci böyük dövləti olan Hindistanda, son vaxtlar koronavirusa yoluxanların sayı ildırım sürətilə artmaqdadır. Hansı ki, pandemiya İrand, ardıyla da Avropada yayılmağa başlayanda Hindistanda bu virusa yoluxanların sayı olduqca cüzi idi. Hətta Çinlə böyük quru sərhədə malik Hindistanda virus təhlükəsinin belə zəif olması çoxlarını təəccübləndirirdi.***



Amma bir məsəl var: sən saydığını say, gör fələk nə sayır. Nəhayət, bu ecazkar ölkə də öz vətəndaşlarını maksimum səylərinə rəğmən, amansız pandemiyadan qoruya bilmədi - virus qısa zamanda elə sürətlə yayılmağa başladı ki, günümüzdə Hindistan ÜST-ün siyahısında ABŞ, Braziliya və Rusiyadan sonra dördüncü pilləyə yüksəldi. Hadisələrin belə təzadlı və tez dəyişən olduğunu nəzərə alaraq Hindistanda yaşayan neft mühəndisi, hətta bir zamanlar SOCAR-da işləmək üçün sənəd vermis Montu Borahla söhbətləşib, bu ölkədəki mövcud vəziyyətə işıq salmağa çalışdım. Oxuyaq görək müsahibimiz nələr deyir:

- Narahatverici hal olsa da, hazırda Hindistanda Covid-19 tam nəzarət altındadır. İlk gündən dövlət virusun yayılmasının qarşısını almaq üçün xüsusi addımlar atmaqdadır və bütün bunlar öz müsbət təsirini göstərib. Qeyd edim ki, hələ mart ayının 25-də, Hindistanın hər yerində ümumi bir karantin elan olundu və bununla da yerlərdə vəziyyət tədricən nəzarət altına alındı. Bu da öz növbəsində imkan yaratdı ki, proseslərə daha çevik reaksiya verilsin. Hindistanda virusun yoluxma səviyyəsinə əsasən bölgələr qırmızı, narıncı və yaşıl rənglərə bölünür və rənglərə görə də qərarlar alınır. Bu gün yalnız dövlət mübarizə aparmır pandemiya ilə, ölkədəki bütün dini və etnik cəmiyyətlər bu prosesdə iştirak edir. Ən əsası isə qaydalara uymayan insanlara qarşı çox sərt ictimai qınaq mövcuddur.

***- Söz düşmüşkən, bu gün yoluxma sayı nə qədərdir?***

- Rəsmi statistika tez-tez dəyişir. Mən sizə yazarkən ölkə üzrə təsdiq edilmiş yoluxma sayı 353206, sağalanların sayı 187356 nəfərdir. Amma çox təəssüf olsun ki, ölənlərin sayı da artmaqda davam edir və indiyədək vəfat edənlərin sayı 11888-ə bərabərdir.

***- Sizcə Hindistanda yoluxma və ölüm sayı kifayət qədər yüksək deyilmi?***

- Nəzərə alın ki, Hindistan əhalisinin sayına görə dünyada ikinci iri dövlətdir. Bu prizmadan yanaşdıqda yoluxma halının çox olması təbidir. Digər yandan, tibb müəssisələrinin çatışmazlığı, habelə əhalinin sayına nisbətdə həkim sayının az olması da prosesə təsir edən amillərdir. Hesab edirəm ki, yoluxma sayının kəskin artması gələcəkdə insanların həyatına öz mənfi təsirini göstərə bilər. Şübhəsiz ki, bu, əhalinin sosial həyatına da hərtərəfli təsir göstərəcək.

***- Əvvəlki sualın təkrarı olmasın, son vaxtlara qədər Hindistan özünü virusdan qoruya bilmişdi. Dediyiniz kimi, nəhəng, 1,2 milyard nəfər əhalisi olan bir ölkədə yoluxma sayı çox az idi. Amma qəflətən rəqəmlər həndəsəsi sürətlə artmağa başladı. Sizcə bunun səbəbi nə idi?***

- Yoluxma hallarının qəfil artması üçün bir çox amil var. Bunlardan biri xarici səyahətdən qayıdanlardır. Onların hər biri qısa müddətə karantinə alındı və üzərlərində test aparıldı, xeyli hissəsində virus aşkarlandı. Bu yerdə bildirim ki, Hindistan hələ yanvarın 31-də, Çinin Vuhan şəhərindən qayıdan bir vətəndaşda virus aşkar olunduğunu bildirmişdi. Tədricən virusa yoluxan insanların sayı artmağa başladı və onlar ciddi şəkildə karantinə alındılar. Amma bir gün paytaxt Dehlidə yerləşən Nizamuddin Mərkəzində təşkil olunmuş bir dini məclisdə iştirak edən insanlar arasında yoluxma hallarının aşkarlanması, Covid-19-un bütün ölkə üçün əsl təhlükə olduğunu göstərdi.

Həmin tədbirdə xaricdən gələnlər də daxil olmaqla, mindən çox insan iştirak edib. Xoşbəxtlikdən onların əksəriyyətini tapıb karantinə almaq və müalicəyə dəvət etmək mümkün oldu. Amma Hindistanda Covid -19-la əlaqəli nəzərə çarpan məqam, yoluxmuş halların çoxunun asimptomatik olması, xəstəliyin səssiz keçməsidir. İlk vaxtlar yoluxma əlamətləri olan insanlar sadəcə GOI tərəfindən testdən keçirilib, amma hər keçən gün gündəlik test sayı artır və təbii ki, say artdıqca yoluxma sayı da çoxalır. Bayaq dediyim kimi, karantində gözlədilən insanlar arasında da çox sayda yoluxanların olduğu bilindi və təbii ki, bu da yoluxma sayının artmasına təsir etdi.

***- Sıradan bir vətəndaş olaraq yaşadığınız bölgədə virusdan özünüzü necə qoruyursunuz, insanlar təhlükəni ciddiyə alırlarmı?***

- Hə, əlbəttə. Biz hökumətin verdiyi bütün təlimatlara uyğun davranırıq. Başa düşürük ki, sağlam yaşamaq istəyiriksə, mütləq qaydalara əməl etməliyik. Məsələn, ən azından maskasız küçəyə çıxmamalıyıq, əlcək geyinməliyik, digər qoruyucu vasitələrdən istifadə etməliyik və sair. İnsanlar təhlükəni çox ciddi anlamağa başlayıblar və əlbəttə ki, ölkəmizin rəhbərləri də xalqı virusun cəngindən qurtarmaq üçün əllərindən gələni edirlər.

***- Hindistanda yoluxma hallarının ərazilər üzrə yayılmasına dair statiska varınızdır? Yəni, hansı bölgələrinizdə virus daha çox yayılıb və ya əksinə...***

- Mumbay bu günə qədər virusun ən çox yayıldığı bölgədir. Təsəvvür edin, yalnız bu şəhərdə 108 min yoluxma halı və 3850 ölüm faktı qeydə alınıb. Səbəbi də məlumdur: Mumbay Hindistanın ən iri şəhəri, əhalinin ən sıx məskunlaşdığı ərazisidir. Üstəlik, Munbay Hindistanı xarici dünya ilə bağlayan başlıca körpüdür. Bu da o deməkdir ki, Munbayda əhalinin sıx olması və xarici ölkələrlə bağlılığı burada virusun daha çox yayılmasına imkan yaradıb. Müqayisə üçün deyim ki, ölkənin başqa vilayətlərindən heç birində ölüm halı 500-dən artıq olmayıb. Bu da həmin vilayətlərdə məskunlaşan insanların sıxlığı və xarici dünya ilə birbaşa əlaqələrinin Munbayla müqayisədə daha zəif olması ilə bağlıdır.

***- Sözsüz ki, Hindistan dünyanın ən inkişaf etmiş dərman istehsalçılarından biridir. Maraqlıdır, vaksin tapmaq üçün alimləriniz hər hansı addım atırmı?***

- Buna söz ola bilməz. Hind əczaçılıq fermalarının bir çoxu, həmçinin Biolaboratoriyaları koronavirus əleyhinə peyvəndi hazırlamaq üçün əzm nümayiş etdirirlər. Ümumiyyətlə, onlar pandemiyanın daha tez və az ziyansız sona çatması üçün bütüün həll varinatları üzərində çalışırlar. Bəzi laboratoriyalar hətta peyvəndlərin hazırlanması ilə bağlı iddialar səsləndirirlər, lakin bununla bağlı hər hansı rəsmi bildiriş verilməyib. Hər halda ümid edirik ki, yaxın gələcəkdə iddialar gerçəkləşə bilər.

***- Bir vətəndaş olaraq, necə düşünürsünüz: dərman istehsalçısı olan Hindistan xaricdən dərman və tibbi avadanlıq alırmı? Yaxud da, bəlkə Hindistan özü digər ölkələrə tibbi yardım göndərir?***

- Hər iki hal var. Mükəmməl beynəlxalq münasibətlər quran Hindistana dost ölkələrdən dəstək verilir. Yalnız beynəlxalq əməkdaşlıq şəraitində Hindistan, eləcə də istənilən digər ölkə dərman və tibbi vasitələrə olan ehtiyacını ödəyə bilər.

***- Nəhayət, ölkənizdə bu vəziyyətin nə vaxt normala dönəcəyini düşünürsünüz? Hindistanda virus təhlükəsi nə vaxt bitəcək?***

- Ölkədə vəziyyətin nə vaxt normallaşacağını dəqiq şəkildə söyləmək mümkün deyil. Bir çox bölgələrdə və müəyyən sahələrdə karantin qaydaları hələ də mövcuddur. Bizə sadəcə ümid etmək qalır. Qaydalara riayyət edərək gözləyək və həm də düşdüyümüz çətinliklərin sona çatması üçün dua edək.

***✍ Vüsal***

# Şərtlər imkan verən kimi monitorinqlər davam etdiriləcək



**“Monitorinq fəaliyyəti və üz-üzə görüşlər istisna olmaqla, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin Ofisi öz işini davam etdirir. Daha çox videokonfranslara və digər texniki vasitələrə etibar edirik”. Bunu ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik Ermənistan mətbuatına müsahibəsində deyib.**

Monitorinqlərin yeni növ koronavirus (COVID-19) pandemiyasına görə dayandırıldığını xatırladan A. Kaspşik bildirib ki, onlar regiondakı vəziyyəti izləməyə davam edirlər, tərəflərlə əlaqə saxlayırlar, ATƏT sədrliyi və Minsk Qrupunun həmsədrlərinə, habelə ATƏT-ə üzv dövlətlərə hesabat verirlər: “Vəziyyət imkan verən kimi fəaliyyətimizi tam şəkildə bərpa etməyi planlaşdırıram. Bildiyiniz kimi, hazırda mənim mandatım daxilində olan ərazilərə ziyarət etmək mümkün deyil. Bununla belə, hərbi və mülki səviyyədə olan səlahiyyətli şəxslərlə davamlı telefon əlaqəsi saxlayıram. Həm də Minsk Qrupunun həmsədrləri tərəfindən mütəmadi olaraq keçirilən telekonfranslarda iştirak edirəm. Məhdudiyyətlərə baxmayaraq, son bir neçə ayda öz işimlə məşğul olmağa davam etmişəm! Şərtlər imkan verən kimi Ofisim genişmiqyaslı monitorinqi davam etdirəcək”.

O, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin Ofisinin genişləndirilməsi məsələsinə də toxunub. A. Kaspşikin sözlərinə görə, 2016-cı ildə Vyanada və Sankt-Peterburqda keçirilən Zirvə görüşlərində Ofisin genişləndirilməsi ideyası prinsipcə qəbul olunub, lakin bu genişlənmə ilə bağlı şərtlər razılaşdırılmalıdır. O, hər hansı bir insident baş verən zaman tərəflərlə əlaqə saxladığını, ATƏT sədrliyi və Minsk Qrupunun həmsədrlərini bu barədə məlumatlandırdığını da qeyd edib. “Araşdırmalar aparmaq səlahiyyətimin olmadığını xatırlamaq vacibdir. Etimad yaradacaq tədbirlər mənim mandatımın əsas hissəsini təşkil edir. Ümid edirəm ki, insanlar arasındakı təmaslar etimad yaratmağa və münasibətləri bərpa etməyə kömək edə bilər.

Tərəflərin istəyi və COVID-19-la bağlı vəziyyət buna imkan verəcəyi halda, etimad yaratma tədbirlərinin daha da inkişaf etdirilməsinə kömək etməyə sadiq qalıram. Mən yalnız tərəfləri razılıq verdikləri halda, etimad yaradan tədbirlərin inkişaf etdirilməsinə cəsarətləndirə və kömək edə bilərəm. Xüsusi etimad yaradacaq tədbirlərin inkişafına dəstək vermək üçün ATƏT sədrliyi və Minsk Qrupu həmsədrləri ilə əlaqə saxlayıram”, - deyə A. Kaspşik vurğulayıb.

***✍ Hafta.az***

# Qərb Ermənistandakı antidemokratik ab-havaya niyə göz yumur?

**2020-ci ilin 16 iyun tarixində “Çiçəklənən Ermənistan” partiyasının sədri, Ermənistan parlamentindəki “Sarukyan” fraksiyasının lideri, milyonçu Qagik Sarukyanın deputat toxunulmazlığı Parlament tərəfindən ləğv edildi. Qagik Sarukyan ölkənin təhlükəsizlik qüvvələri tərəfindən ifadə vermək üçün istintaqa cəlb olundu.**



Ermənistandakı müxalif qüvvələr hesab edir ki, Sarukyanın həbs ediləcəyi istisna olunmur. Onun məhz Nikol Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması baş verənlərin siyasi təqib olduğunu sübut edir. Qagik Sarukyanla bağlı son hadisələr fonunda “azadlıq carçısı” olan bəzi beynəlxalq təşkilatların, beynəlxalq QHT-lərin, ümumən bir sıra Qərb təşkilatlarının səssizliyi heyrət doğurur.

Bu ilk hadisə deyil ki, Qərb özünü görməməzliyə vurub. Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdikdə niyə reaksiya verilmədi? Qərbin ikili standartlarının ən bariz nümunəsi Ermənistanda keçirilmiş seçkilərə reaksiyalarıdır. 2017-ci ildə Ermənistanda parlament seçkiləri keçirildi. Seçkiləri müşahidə edən Qərb təşkilatlarının rəyində Ermənistanda bütün başlıca azadlıqlara əməl edildiyi göstərilmişdi. Lakin az sonra Ermənistanda inqilab baş verdi və seçkiləri uduzmuş indiki baş nazir hakim partiyanı devirdi.

2019-cu ildə BMT Baş Assambleyasında çıxış edən Ermənistanın baş naziri 2018-ci ilin dekabrında keçirilmiş yeni seçkilərə toxunaraq demişdi: “25 il il ərzində ilk dəfə bu seçkilər və onun nəticələri hamılıqla qəbul edilmiş və heç bir siyasi partiya tərəfindən şübhə altına alınmamışdır”. Yenə həmin çıxışında baş nazir bildirir ki, “hakimiyyətə gələndən dərhal sonra heç vaxt ölkəmizdə olmayan demokratik təsisatların yaradılması üçün ciddi addımlar atmağa başladıq”.

■ **İşğalçı ölkədə baş verənləri və Avropa dairələrinin məsələyə susqunluğunu hafta.az-a şərh edən politoloq Qabil Hüseyli deyib ki, Qərb doğrudan da təəccüb doğuracaq dərəcədə Ermənistandakı hadisələrə ciddi diqqət ayırmır:** “Ermənistanda baş verən hadisələr insan hüquqları prizmasında, demokratik dəyərlər kontekstində qiymətləndirilərsə, bu, başdan-ayağa Nikol Paşinyanın həyata keçirdiyi siyasətin alt-üst olması anlamına gələ bilər. Bu nöqteyi-nəzərdən millət vəkilinin, eyni zamanda, partiya sədrinin elə parlamentin önündə polislər tərəfindən həbs edilməsi, götürülüb aparılması, başqa cür fikirləşən müxalif düşərgə təmsilçilərinin həbsi, guya ölkədə dövlət çevrilişi hazırlanır deyə bir sıra adamların prokurorluğa çağrılaraq izahat alınması və sair bu kimi hallar onu göstərir ki, Ermənistanda ciddi siyasi böhran yaşanır”.

Politoloqun fikrincə, bu siyasi böhran hakimiyyət böhranıdır: “Bir çox politoloqların fikrincə, hadisələrin bu cür inkişafı indiki hakimiyyətin sonuna gətirib çıxara bilər. Amma hakimiyyət də repressiya addımlarına əl atıb. Həbslər, təzyiqlər və polis təqibi ilə baş verən hadisələri səngitməyə çalışır.

Doğrudan da Qərb ölkələri Paşinyanın bu hərəkətlərinə qarşı hər hansı bir mövqe ortaya qoymağa tələsmir. Avropa Şurası, Avropa Parlamenti, ATƏT-in Parlament Assambleyası, BMT-nin özü də hələ ki, bu məsələlərdə susqunluq nümayiş etdirir. Belə çıxır ki, bu dairələr Nikol Paşinyanı demokrat hesab edir və onu özlərinə yaxın siyasi qüvvə sayırlar. Eyni zamanda, Ermənistanın baş nazirinin hadisələri nəzarət altına alacağını güman edirlər. Amma bu ona bənzəmir. Bundan başqa, Ermənistanda baş qaldıran siyasi böhranın kənardan qızışdırıldığını da söyləmək mümkündür. Belə olan təqdirdə Nikol Paşinyanın baş verən hadisələrə axıra qədər nəzarət edə biləcəyi heç də inandırıcı görünmür”.

***✍ Tural***

## GÜNÜN TƏZADLARI

### Əli effektiv və ucuz koronavirus testi ixtira etdi



■ **Fəhd ibn Əbdüləziz adına Səudiyyə Universitetinin məzunu “COVID-19”u test etmək üçün effektiv və ucuz bir cihaz hazırladı.** Hafta.az xəbər verir ki, bu haqda “Arabnews” nəşri məlumat yayıb. Hal-hazırda Kaliforniya Universitetində doktorluq təqaüdü alan Əli əl-Şəhri adlı gənc müsəlman bir insanın koronavirus infeksiyasına yoluxub-yoluxmadığını 10 dəqiqə ərzində müəyyənləşdirməyə kömək edən alkotesterə bənzər bir test qurğusu icad edib. Bu ixtiraya cavab olaraq Səudiyyə Ərəbistanı Krallığının Milli Elm Fondu cihazı istehsal etmək məqsədilə illik 150 min dollar qrant ilə bir layihə hazırlamaq üçün təhqiqat qrupu formalaşdırıb. Cihaz alkoqolu test edən bir qurğu kimi işləyəcək. Yoxlanılan adam cihaza doğru bir dəqiqə nəfəs almalıdır. İnsanın nəfəsində canlı bir virus olduğu halda, qurğunun içərindəki flüoresan genetik maddələr yanır. Cihaz xəstəxana, məktəb və hava limanları kimi digər qapalı məkanlarda virusların və yoluxucu xəstəliklərin monitorinqi üçün də istifadə edilə bilər.

### Qarın piylərindən azad olmaq istədi - ayağı kəsildi



■ **2011-ci ildə Kolumbiya gözəli, 2012-ci ildə isə Kainat gözəli seçilmiş model Daniella Alvarezin ayağı amputasiya edildi.** Hafta.az bildirir ki, model Daniella Alvarez qarnındakı piylərdən azad olmaq üçün əməliyyata girib. Lakin əməliyyat zamanı onun sol ayağında qanın fəaliyyəti ilə bağlı fəsadlar yaranıb və qanqrena baş verib. Həkimlər göyərmənin bütün bədənə yayılmasının qarşısını almaq üçün modelin ayağını amputasiya etmək məcburiyyətində qalıblar.

Eyni zamanda, Birləşmiş Millətlər elçisi olan Alvarez bazar günü keçirdiyi əməliyyatdan sonra ailəsi və yaxın dostları ilə xəstəxana palatasında çəkdirdiyi fotoları sosial şəbəkədə paylaşıb. Alvarez bədənini ən azı əvvəlki qədər çox sevdiyini bildirib və göz yaşları içərisində ona dəstək olan bütün xəstəxana işçilərinə təşəkkür edib.

### Nənənin nəvəsinin anası olacağı bilindi



■ **Nənə qızından olacaq nəvəsinə surroqat ana olmağa razılıq verdi.** Hafta.az-ın verdiyi xəbərdə belə deyilir. 29 yaşlı Breanna Lokvud və yoldaşı Aaron dörd il övlad sahibi ola bilməyiblər. Cütlük süni mayalanma xidmətinə müraciət etsə də, nəticəsi mənfi olub. Qızına müraciət edən 51 yaşlı Culiya Lavinq nəvəsi üçün surroqat ana olmağa hazır olduğunu bildirib. ABŞ-da surroqat ana olmaq üçün yaş həddi 35-dir. Lakin həkimlər sağlamlığı əla vəziyyətdə olan qadına surroqat ana olmaq üçün icazə veriblər. Hamiləlik uğurlu alınıb. Uşağın noyabr ayında doğulacağı gözlənir.

### Bərdədə 37 yaşlı kişi arı sancmasından öldü



■ **Bərdə rayonunun Gərənə kənd sakini arı sancmasından həyatını itirdi. Bu barədə Hafta.az xəbər verir.** Məlumata görə, arının sancdığı 1983-cü il təvəllüdlü Həmidov Xəyyam Akif oğlu Bərdə Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Lakin həkimlər nə qədər çalışsalar da, onun həyatını xilas etmək mümkün olmayıb.

### Cəlilabadın bir kəndində 26 nəfər koronavirusa yoluxdu



■ **Cəlilabad rayonunun 5 kəndində yeni növ koronavirus (“COVID-19”) infeksiyasına yoluxma hallarının artım dinamikası müşahidə olundu.** Hafta.az xəbər verir ki, ”Report”un Muğan bürosunun məlumatına görə, bunlar Həziabad, Bəcirəvan, Ağdaş, Komanlı və Şıxlar kəndləridir. Qeyd olunan ərazilər arasında ən çox yoluxma hallarının Ağdaş kəndində olduğu bildirilir. Məlumata görə, bu kənddə 26 nəfərdə koronavirus aşkar edilib. Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının əməkdaşları bu kəndlərdə olublar. Sakinlərdən yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar yaxma analizləri götürülüb. Qeyd edək ki, bir müddət öncə Cəlilabad Rayon Mərkəzi Xəstəxanası koronavirus xəstələrinin müalicə olunduğu xüsusi rejimli xəstəxanaya çevrilib. ABŞ-ın Çikaqo şəhərində ana sonsuzluqdan əziyyət çəkən qızına kömək etmək qərarına gəlib və nəvəsi üçün surroqat valideyn olub.

### “Neftçi” klubunun avtobusu qəzaya uğradı



■ **Bakının “Neftçi” futbol klubunun avtobusu qəzaya düşdü. Hafta.az-ın yazdığına görə, “Qafqazinfo” xəbər verir ki, hadisə iyunun16-da axşam saatlarında paytaxtın Heydər Əliyev prospektində baş verib.** Hadisə ilə bağlı ”Qafqazinfo”ya açıqlama verən bakılıların mətbuat xidmətinin rəhbəri Rüstəm Allahverdiyev bildirib ki, qəzanın baş verməsinə səbəb sağ zolaqda hərəkət edən taksi sürücüsünün məsafəyə əməl etməməsi olub: ”Taksi sürücüsü ötmə əməliyyatını yerinə yetirən zaman məsafəni düzgün hesablaya bilmədi. Nəticədə onun idarə etdiyi minik avtomobili komandanın avtobusuna çırpıldı. Xoşbəxtlikdən qəza zamanı xəsarət alan olmayıb”. Qeyd edək ki, qəza ilə əlaqədar prospektdə sıxlıq müşahidə olunub.

***✍ Sultan Laçın***

# Bu gün pandemiya ilə mübarizədə də həkimlərimiz böyük fədakarlıq göstərirlər

***17 iyun Beynəlxalq həkimlər günüdür. Ölkədə koronavorus pandemiyasına qarşı aparılan mübarizə tədbirləri gücləndirilir, dövlət başçısı vətəndaşlara çağırışlar edir. Bu mübarizənin ön cəbhəsində isə həkimlərimiz, səhiyyə işçilərimiz gəlir. Koronavirusla mübarizə və həkimlərə dövlət başçısının diqqət və qayğısını hafta.az-a şərh edən millət vəkili Ceyhun Məmmədov dedi ki, dünyanın ən məsuliyyətli, ağır və şərəfli peşələrindən biri həkimlikdir:***



"Bu gün bəşəriyyətin sağlamlığının qorunmasında bu peşə sahiblərinin müstəsna rolu var. İnsanların həyatını xilas etmək üçün bu peşə sahibləri böyük fədakarlıq göstərir, hətta öz həyatlarını riskə atırlar. Dünyanın müharibə gedən bölgələrində də ən çox dünyasını dəyişən peşə sahiblərindən biri də həkimlərdir.

Bu gün Azərbaycanda səhiyyə sahəsinə böyük diqqət və qayğı var. Son illər çoxlu sayda yeni müəssisələr inşa olunaraq vətəndaşların istifadəsinə verilib, yeni avadanlıqlar alınıb. Əvvəlki dövrlərlə müqayisədə bu gün ölkəmizdə səhiyyə sahəsi xeyli inkişaf edib, böyük nailiyyətlər əldə olunub. Bu gün pandemiya ilə mübarizədə də həkimlərimiz böyük fədakarlıq göstərirlər. Bu gün bəzi həkimlərimiz də bu virusun qurbanları olublar. Bu baxımdan onlara xüsusi təşəkkür düşür.

Qeyd etmək lazımdır ki, bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu müqəddəs peşə sahiblərinə böyük diqqət və qayğı ilə yanaşırlar. Onlarla birlik və həmrəylik nümayiş etdirirlər.

Bir çox sınaqlardan üzüağ çıxdığımız kimi, bu bəladan da uğurla çıxacağıq. Bunun üçün hər birimiz karantin qaydalarına tam əməl etməli, özümüzü və yaxınlarımızı qorumalıyıq. Əks halda çox ciddi sınaqla və ağır nəticələrlə üz-üzə qala bilərik. Fürsətdən istifadə edib bütün həkimlərimizi bu gün münasibətilə səmimi-qəlbdən təbrik edirəm".

Azərbaycan səhiyyəsində uzun illər boyu əldə edilmiş nailiyyətlər artıq bu gün öz bəhrəsini verir. Bu müddət ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə çoxsaylı tibb müəssisələri inşa edilərək istifadəyə verilib, həkimlərin maddi təminatı yaxşılaşdırılıb, peşəkar kadrlar yetişdirilib, tibbi personalın peşəkarlıqla fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb.

Bu sözləri isə Milli Məclisin deputatı Kamran Bayramov bildirib. Həkimlərimizə verilən dəyərin və fəaliyyətlərinə bəslənilən əhəmiyyətin təzahürü olaraq Azərbaycanın tibb işçilərinin peşə bayramının təsis edildiyini və hər il iyunun 17-də bu bayramın qeyd olunduğunu söyləyən K.Bayramov deyib: "Həkimlik çox nəcib və məsuliyyətli peşədir, insanların sağlamlığını qorumaq, onlara ömür bəxş etmək, yaşatmaq isə müqəddəs və şərəfli bir vəzifədir. Bizim həkimlərimiz və tibb işçilərimiz hər zaman, xüsusilə də ölkəmizi bürümüş koronavirus pandemiyası dövründə bu vəzifəni məsuliyyətlə və vicdanla yerinə yetirirlər. Ölkə vətəndaşlarının qorunması, onların sağlamlığının müdafiəsi əsas vəzifələrinə çevrilib. Belə gərgin günlərdə tibb işçilərinin üzərinə böyük məsuliyyət düşür və bu ağır dövrdə sağlamlığımızın keşiyində duran həkimlər bu günün qəhrəmanlarıdır, fəxrimiz və qürurumuzdur".

Deputat qeyd edib ki, dövlətimiz öz vətəndaşlarının sağlamlığının qorunması, koronavirus xəstəliyinə yoluxmuş insanların müalicəsi ilə gecə-gündüz məşğul olan tibb işçilərinin əməyini yüksək qiymətləndirir, onlara maddi və mənəvi dəstək göstərir: "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, habelə tibb işçilərinin peşə bayramı ərəfəsində Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların və "Tərəqqi" medalının verilməsi haqqında Prezidentin imzaladığı sərəncamlar da göstərilən dəstəyin bariz nümunəsidir".

✍ *Ruzbeh*

# Azərbaycan iqtisadiyyata müasir texnologiyaların tətbiqinə görə regionda liderdir



Azər Badamov,
Milli Məclisin deputatı

**Heç şübhəsiz ki, bu gün Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Xatırlayırsınızsa, Davos İqtisadi Forumu zamanı Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənəd imzalanmışdı.**

Bu gün həm ölkə başçısı İlham Əliyev, eləcə də dünyanın aparıcı innovasiya və yüksək texnologiyalar üzrə inkişaf etmiş şirkətlərinin rəhbərləri hesab edirlər ki, adıçəkilən mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək.

Prezident İlham Əliyevin bildirdiyi kimi, burada əsas məqsəd Azərbaycanın əsas strategiyası karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır.

■ **Millət vəkili Azər Badamov hafta.az-a açıqlamasında deyib ki, Azərbaycanda Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin açılması, belə bir qərarın verilməsi təbii ki, ölkəmizin müasir texnologiyalara və innovasiyalara verdiyimiz önəmdən irəli gəlir:** "Cənab Prezidentin Davosa səfəri zamanı Azərbaycanda Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin açılması ilə bağlı məsələ müzakirə olunmuşdu. Bununla bağlı qərar qəbul edilmişdi. Azərbaycanda Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin açılması, belə bir qərarın verilməsi təbii ki, ölkəmizin müasir texnologiyalara və innovasiyalara verdiyimiz önəmdən irəli gəlir. Azərbaycan bu illər ərzində ölkədə elektron hökumətin yaradılması, iqtisadiyyatın rəqəmsallaşdırılması, sənayenin inkişafında müasir innovasiyaların tətbiqi istiqamətində böyük layihələr icra edib. Təbii ki, dünya tərəfindən Azərbaycanın bu istiqamətdə gördüyü işlər izlənilir və yüksək dəyərləndirilir".

Millət vəkilinin fikrincə, Azərbaycan bu gün iqtisadiyyata innovasiya və müasir yeni texnologiyaların tətbiqinə görə regionda liderliyini qoruyub saxlayır. Ölkəmiz yeniliyə, müasirliyə doğru irəliləyən, buna önəm verən dövlətdir: "Gələcək iqtisadiyyat texnologiyalar üzərində qurulmalıdır. Azərbaycanda belə bir mərkəzin açılması ölkəmizin daha yeni texnologiyalara yiyələnməsini şərtləndirəcək. Bu istiqamətdə imkanların genişləndirəcək. Son vaxtlar biz dünyanın inkişaf etmiş texnoloji şirkətlərinin rəhbərlərinin təşəbbüsü ilə cənab prezidentlə görüşlərini izləyirik. Videokonfranslarda həmin şirkətlərin rəhbərləri Azərbaycanda həyata keçirilən texnoloji layihələri yüksək dəyərləndirirlər. Təbii ki, Azərbaycanın innovasiyalara önəm verməsi bu şirkətlərin də ölkəmizə marağını artırır. İyunun 16-da "Microsoft" şirkətinin rəhbərləri ilə görüşdə də əsas toxunulan məqamlardan biri də bunlar - yəni, Azərbaycanın müasir texnologiyalara olan marağı və həmin texnologiyalara yiyələnmək istiqamətində gördüyü tədbirlər, işlər idi".

Azər Badamov onu da ələvə edib ki, bu gün Azərbaycan Avropa ilə Asiyanı birləşdirən internet hiperoptik kabel çəkilişini həyata keçirir: "Bu hiperoptik kabelin çəkilişindən sonra ölkəmiz 2 milyarda yaxın əhalinin yararlanacağı bir rəqəmsal idarə edilməsi mərkəzi olacaq. Yəni, Azərbaycanda yeni data formalaşacaq. Bütün bunlar regionda dördüncü sənaye inqilabına keçidin sürətləndirilməsində ölkəmizin rolunu artıracaq. Bu gün hər tərəfdən baxanda dünya inkişaf etmiş ölkələrinin əsas istiqamətləri texnologiyalar üzərində formalaşıb. Bu gün Azərbaycan yeni texnologiyalara önəm verən ölkədir. Dördüncü sənaye inqilabının mərkəzi kimi Azərbaycanın seçilməsi, ölkəmizin bu sahədə daha da uğurlu fəaliyyət göstərməsinə imkan verəcək".

✍ *Tural*

# Qlobal şirkətlərin ölkəmizə inamı yüksəkdir

**"Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə "Microsoft" rəhbərliyi ilə keçirilən videokonfrans bir neçə aspektdən əhəmiyyət kəsb edir". Bunu Milli Məclisin deputatı Vüqar Bayramov deyib.**



Vüqar Bayramov,
Milli Məclisin deputatı

Onun sözlərinə görə, bu, bir daha təsdiq edir ki, beynəlxalq qurumların, eləcə də aparıcı qlobal şirkətlərin Azərbaycan iqtisadiyyatına inamı kifayət qədər yüksəkdir:

"Pandemiya dövründə məhz belə videokonfransların keçirilməsi post-pandemiya dövründə həmin şirkətlərin Azərbaycanla əlaqələrini daha da genişləndirmək istəyindən xəbər verir. Bu isə təbbi ki, ölkə iqtisadiyyatına olan güvənin göstəricisidir. Digər tərəfdən videokonfransda qeyd edilən məsələlər bir daha təsdiq edir ki, beynəlxalq qrumların və aparıcı şirkət rəhbərlərinin Azərbaycan liderinə etimadı kifayət qədər yüksəkdir.

Məhz bu görüşlərdə, eləcə də bundan əvvəl keçirilən videokonfranslarda ölkə Prezidentinin rəhbərliyi ilə aparılan islahatların yüksək qiymətləndirilməsi və xüsusi qeyd edilməsi ondan xəbər verir ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar beynəlxalq qurumlar, eləcə də dünyanın aparıcı şirkətləri tərəfindən müsbət qarşılanır.

Eyni zamanda, bu videokonfrans pandemiya dövründə Azərbaycanın həyata keçirdiyi tədbirləri, o cümlədən sahibkarların dəstəklənməsi ilə bağlı reallaşan islahatlara da beynəlxalq qiymət kimi də xarakterizə olunmalıdır. Çünki nəticə etibarı ilə əvvəlki videokonfransda olduğu kimi, "Microsoft" rəhbərliyi də Azərbaycanın həyata keçirdiyi tədbirləri, o cümlədən bu dövrdə həm sahibkarların, həm bütövlükdə muzdlu işçilərin, eləcə də vətəndaşlarımızın dövlət tərəfindən dəstəklənməsini xüsusi qiymətləndirir".

Deputat qeyd edib ki, bu görüş eyni zamanda təsdiq etdi ki, Azərbaycan innovasiya və informasiya texnologiyaları baxımından regionun aparıcı ölkəsidir: "Azərbaycan innovasiyanı dəstəkləyən və texnoloji inkişafa töhfə verən ölkələrdən biridir".

✍ *Hafta.az*

# Bir sıra qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a verilən xəbərə görə, komitənin sədri Tahir Mirkişili gündəliyə daxil edilən 4 məsələnin hər biri haqqında iclas iştirakçılarına məlumat verib.**

Onlayn iclasda əvvəlcə "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" (ücüncü oxunuş) qanun layihəsi müzakirə edilib. Komitə sədri "Dövlət rüsumu haqqında" qanuna (ikinci oxunuş) təklif olunan dəyişikliklərlə əlaqədar məlumatında bildirib ki, sənəd "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" 27 iyun 2019-cu il tarixli qanuna uyğunlaşdırma məqsədi daşıyır. Layihədə tibb müəssisələrinin akkreditasiyası ilə bağlı dövlət rüsumlarının məbləği müəyyən edilib.

Sonra "Telekommunikasiya haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəsi keçirilib. Bildirilib ki, qanunda "az" ölkə kodlu, yüksək səviyyəli domen adlarının tənzimlənməsinə dair müddəalar nəzərdə tutulub. Sənədə "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında onların qeydiyyatı və texniki xidmət üzrə ödənişin hüquqi əsasının yaradılması, həmin ödənişin məbləğinin razılaşdırılacağı qurumun müəyyənləşdirilməsi ilə bağlı maddə əlavə edilib. Onlayn iclasda "Dövlət rüsumu haqqında", "Dövlət qulluğu haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihəsinin "Təhsil haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında 2020-ci il 24 aprel tarixli 58-VIQD nömrəli qanunun icrası ilə əlaqədar hazırlandığı vurğulanıb. Komitə sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Məşhur Məmmədov, Aydın Hüseynov, Elnur Allahverdiyev, Mahir Abbaszadə, Ağalar Vəliyev, Rüfət Quliyev və Anar Məmmədov müzakirə edilən sənədlərlə əlaqədar fikirlərini bildiriblər, təkliflərini səsləndiriblər. Ətraflı müzakirələrdən sonra sənədlərin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

✍ *Hafta.az*

BÖLGƏ

## GÖYÇAY Rayon Mərkəzi Xəstəxanası karantin xəstəxanasına çevrilib



**Göyçay Rayon Mərkəzi Xəstəxanası "COVİD-19"la mübarizə xəstəxanası kimi fəaliyyət göstərməyə başlayıb.**

Göyçay Rayon Mərkəzi Xəstəxanasının direktoru Elçin Bilalov bu səhiyyə ocağının qapılarının iyunun 19-da vətəndaşların üzünə bağlanması və koronavirusla mübarizə məqsədilə karantin xəstəxanası kimi fəaliyyətə başlaması, eləcə də insanların bu gün səhər saatlarından etibarən içəri buraxılmaması ilə bağlı yaranan narazılıqlara görə Göyçay sakinlərinə müraciət edib, hamını anlayışlı və səbirli olmağa çağırıb. Direktor APA-nın yerli bürosuna bildirib ki, xəstəliyi ilə əlaqədar vəziyyəti ağırlaşan və müxtəlif hadisələr nəticəsində xəsarət alan şəxslər Göyçay Rayon Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edəcək. Stansiyada bununla əlaqədar zəruri tədbirlər görülüb və şərait yaradılıb. Göyçay Ailə Sağlamlıq Mərkəzində isə şəkərli diabet, ruhi-əsəb, onkoloji və vərəm xəstələrinin qəbulu və müvafiq dərmanlarla təchizatı təşkil olunub. Bundan əlavə, müxtəlif cərrahiyyə əməliyyatları və doğuş üçün müraciət edən Göyçay sakinləri, eləcə də avtomobil qəzaları zamanı ağır xəsarət alan şəxslər, digər ağır xəstələr Kürdəmir, Ağsu, Yevlax və Mingəçevir xəstəxanalarına müraciət edəcəklər.

Göyçay RMX-da 100-dən çox tibb işçisi fəaliyyət göstərəcək, digər işçilər isə məcburi məzuniyyətə göndəriləcək. Göyçayın xəstəxanalarındəki həkim tibb məntəqələri fəaliyyətini əvvəlki kimi davam etdirəcək.

## İMİŞLİDƏ sakinlərin yol problemi həll olunur



**İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsi Məzrəli və Xubyarlı kəndlərində daxili yollar xeyli müddətdir ki, yararsız vəziyyətdədir.**

Uzun zamandır tədbir görülməyindən yollarda sakinlərin gediş-gəlişi üçün müəyyən çətinliklər yaranırdı və bu, əhalinin haqlı narazılığına səbəb olurdu. İmişli Rayon İcra Hakimiyyəti sakinlərin müraciətlərini nəzərə alaraq, həmin yolları təmir edib.

Bəhrəmtəpə qəsəbəsində 1 750 metr, Məzrəli kəndində 1 150 metr və Xubyarlı kəndində 1 132 metr yol asaslı təmir olunaraq, asfalt örtüyü yenilənib. İmişli sakinlərinin yol kabusuna son qoyacaq bu işlər mərhələ-mərhələ bütün daxili yollarda davam etdiriləcək. İmişlidə ümumi uzunluğu 4 032 metr olan bu yollar təxminən 10 min nəfərə xidmət edir.

Qeyd edək ki, hazırda ölkədə yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi hesabına da irimiqyaslı layihələr icra olunur.

## AĞCABƏDİ "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb



**İyun 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Ağcabədi regional "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb.**

Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a bildiriblər ki, Ağcabədi regional "ASAN xidmət" mərkəzi Ağcabədi, Beyləqan, Zərdab, Ağdam, Şuşa, Füzuli, Cəbrayıl, Xocalı və Xocavənd rayonlarda qeydiyyatda olan 814 min 900-dən çox vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək. Qeyd edək ki, cari il iyunun 3-də Prezident İlham Əliyev Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında iştirak edib. Hazırda ölkəmizdə 19 "ASAN xidmət" mərkəzi mövcuddur. Onlardan 5-i paytaxt Bakıda, digər 14-ü isə regional mərkəzlər olmaqla Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz və Ağcabədidədir.

## HACIQABUL-Muğan avtomobil yolu yenidən qurulur

**Hacıqabul rayonunun Hacıqabul-Muğan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan yenidənqurma işləri yekunlaşmaq üzrədir.**

Agentlikdən hafta.az-a bildirilib ki, avtomobil yolunun uzunluğu 11.5 km-dir. Yolun 6.4 km-lik hissəsi III texniki dərəcəli, 5.1 km-lik hissəsi isə şəhər daxili yoldur. Bu üzdən yolun hərəkət hissəsinin eni müxtəlif ərazilər üzrə fərqlidir və 7-20 metr arası dəyişərək 2-5 hərəkət zolağı təşkil edir. Yolun hər bit istiqaməti üzrə 2.5 metr enində çiyinlər, şəhər daxilində isə piyada səkiləri mövcuddur. Sözügedən avtomobil yolu uzun illər istismar olunduğundan örtük yararsız vəziyyətdə idi. Bu üzdən yolun yenidən qurulması ilə 32 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini arasında nəqliyyat əlaqəsi daha da yaxşılaşacaq, yük və sərnişin daşıması asanlaşacaq. Ən əsası əhalinin bir neçə istiqamətdən həm Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna, həmçinin Hacıqabul-Şirvan avtomobil yolu vasitəsilə respublikanın digər şəhər və rayonlarına rahat çıxışı təmin olunacaq.

Sadalanan bütün işlər "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında aparılır. Əraziyə cəlb olunmuş lazımi sayda qüvvənin köməkliyi ilə qısa müddətə tikinti işlərinin yekunlaşdırılması ilə müasir yol infrastrukturu vətəndaşların istifadəsinə veriləcək.

# Ümumdünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günü

## Hər il dünyada, təxminən, 12 milyon hektar məhsuldar torpaq yararsız vəziyyətə düşür

**Ekologiya və ətraf mühitin mühafizəsi**

***17 iyun - Ümumdünya Quraqlıq və Səhralaşma ilə Mübarizə Günüdür. Qeyd edək ki, bu günün qeyd edilməsi 1994-cü ildə BMT-nin Baş Assambleyası tərəfindən elan olunub. Elə həmin il Birləşmiş Millətlər Təşkilatı tərəfindən səhralaşma ilə mübarizə haqqında Konvensiya qəbul edilib. Sənəddə dövlətlərə səhralaşma ilə mübarizədə beynəlxalq səviyyədə əməkdaşlığın zəruriliyi, o cümlədən bu barədə maarifləndirmənin artırılması təklif olunur. Səhralaşma quraq, yarımquraq və nisbətən rütubətli ərazilərdə torpağın deqradasiyaya uğraması nəticəsində yaranan qlobal ekoloji və sosial-iqtisadi problemdir.***



Səhralaşmanın yaranmasının əsas səbəbi antropogen faktorlar və iqlim dəyişkənliyidir. Səhralar planetin quru ərazisinin beşdəbirindən çoxunu əhatə edir və hər qitədə mövcuddur. Hər il dünyada təxminən 12 milyon hektar məhsuldar torpaq yararsız vəziyyətə düşür. Məhsuldar torpaqlar ağır səhra ərazisinə çevrilir və problem böyüyür. Səhralaşma bütün dünyada təxminən 1,5 milyard insana təsir göstərir. Hər il səhralaşma və quraqlıq kənd təsərrüfatında təxminən 42 milyard dollar itkiyə səbəb olur. Qeyd edək ki, quru iqlim şəraitində yerləşən Azərbaycan üçün də səhralaşma problemi son dərəcə aktualdır. Buna görə Azərbaycan Respublikası ölkənin ekoloji durumunun yaxsılaşdırılmasını, təbii resurslardan səmərəli və ziyansız istifadə olunmasını, o cümlədən milli maraqları nəzərə alaraq 1998-ci il 24 aprel tarixində "Səhralaşmaya qarşı mübarizə" Beynəlxalq Konvensiyasına qoşulub. Dünyanın 170 ölkəsinin qoşulduğu Konvensiyada dövlətlərə səhralaşma ilə mübarizədə beynəlxalq səviyyədə əməkdaşlığın zəruriliyi, o cümlədən bu barədə maarifləndirmənin artırılması təklif olunur.

Birləşmiş Millətlər Təşkilatının Konvensiyasında tərəflərin ümumi öhdəliklərinə gəlincə, tərəflər bu Konvensiya üzrə öhdəliklərini, əsas diqqəti bütün səviyyələrdə uzunmüddətli strategiyanın hazırlanması və cəhdlərin əlaqələndirilməsinin vacibliyinə yönəldərək, şəraitdən asılı olaraq və mövduc və yaxud gələcək iki tərəfli və çoxtərəfli müqavilələrdə, yaxud belələrinin qarşılığında fərdi və yaxud birlikdə yerinə yetirir.

Konvensiyanın Tərəflərinin xüsusi öhdəlikləri də var. Belə ki, bu ölkələr səhralaşma ilə mübarizə və quraqlığın nəticələrinin zəiflədilməsinə birinci növbəli diqqət yetirmək və onları özünəməxsus şəraitləri və imkanlarına uyğun olan bərabər ehtiyatlar ayırmaq, səhralaşma ilə mübarizə və quraqlığın nəticələrinin zəiflədilməsi üzrə sabit inkişaf planları və strategiyası çərçivəsində strategiya hazırlamaq və prioritetləri müəyyənləşdirmək, səhralaşmanın əsasını təşkil edən səbəblərin aradan qaldırılması məsələlərinə baxmaq və səhralaşma prosesinin inkişafına şərait yaradan sosial-iqtisadi amillərə xüsusi fikir vermək, yerli əhalinin məlumatlandırılmasının təmin edilməsinə yardım etmək və səhralaşma ilə mübarizə və quraqlığın nəticələrinin aradan qaldırılmasında onun, xüsusilə də qeyri-dövlət təşkilatlarının yardımı ilə qadınların və gənclərin iştirakını təmin etmək kimi öhdəliklərə malikdirlər.

Yeri gəlmişkən, Azərbaycanda da torpaqlar müxtəlif dərəcədə erroziyaya məruz qalıb. Respublikada ümumi torpaq fondunun sahəsi 8,641 milyon hektardan artıqdır. Bunun 4,47 milyon hektarı kənd təsərrüfatına yararlı, o cümlədən 1,43 milyon hektarı suvarılan torpaqlardır. Respublika ərazisinin 3,240 milyon hektarı və ya 37,4 faizi istifadə olunmayan (şoranlaşmış, bataqlıqlaşmış, güclü eroziyaya uğramış, daşlı çay yataqları, qayalıqlar və s.) torpaqlardır. Ərazinin geoloji quruluşundan, relyefindən, iqlim şəraitindən, torpağın rütubətlənmə şəraiti və mexaniki tərkibindən, sukeçirmə qabiliyyətindən, strukturundan və s. asılı olaraq yaranan ekocoğrafi problemlər də müxtəlif olur. Azərbaycanda torpaqların 36,4 faizi müxtəlif dərəcədə eroziya prosesinə məruz qalıb. Onun 14,1faizi zəif, 10,7 faizi orta, 11,6 faizi şiddətli dərəcədə yuyulmuş torpaqlardır. Azərbaycanın ayrı-ayrı regionlarının təbii şəraitindən və antropogen təsirlərdən asılı olaraq eroziya proseslərinin intensivliyi və forması müxtəlif dərəcədə inkişaf edib. Odur ki, Mil və Qarabağ düzlərində torpaqların 30,8 faizi, Quba-Xaçmaz zonasında 48,2 faizi, Abşeron yarımadasında 40,3 faizi, Şirvan düzündə 27,7 faizi, Şəki-Zaqatala zonasında 55,7 faizi eroziya proseslərinə məruz qalıb. Bura su, külək və irriqasiya eroziyasına məruz qalan bütün torpaqlar aiddir. Su eroziyası dağlıq ərazilərdə, xüsusilə Böyük Qafqazın cənub və qismən şimal-şərq yamacında geniş yayılıb. Meşə örtüyü zəif olan yamaclarda, xüsusilə Şinçay, Kişçay, Girdimançay, Pirsaat və Qozluçayda dağıdıcı sellər daha tez-tez müşahidə olunur. Qeyd olunan çaylar qədər daşqınlara məruz qalan Katex, Mazımçay və Balakən çaylarının hövzələri Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisində yerləşir və ona görə də buradakı meşələr, subalp və alp çəmənlikləri çox yaxşı mühafizə olunduğundan eroziya prosesi zəif gedir və adı çəkilən çaylarda sel hadisələrinə təsadüf edilmir. Meşə zonasından yuxarı subalp və alp çəmənliklərdə eroziya prosesinin inkişafına təkan verən əsas amil malqara və qoyun sürülərinin göstərdiyi antropogen təzyiqin getdikcə güclənməsidir. Bu səbəbdən yaranan eroziya proseslərinə məruz qalan torpaqlar Quba, Xızı, Şamaxı, İsmayıllı, Qəbələ, Daşkəsən və işğal olunmuş Kəlbəcər və Laçın rayonlarının dağ çəmənliklərində daha çox sahə tutur.

Su eroziyası ilə yanaşı külək eroziyası da torpaqlara ziyan vurur. Onun ən çox yayıldığı yerlər Abşeron yarımadası, Qobustan, Samur çayından başlamış Qızılağac körfəzinə qədər Xəzər dənizinin sahil zonası, Mil və Muğan düzləri, Ceyrançöl, Acınohur düzü və Bozdağ sistemidir. Buradakı təsərrüfat sahələrinə külək eroziyasının vurduğu ziyan çox böyükdür. Məsələn, küləklərin hakim olduğu ərazilərdə torpaq örtüyü sovrularaq öz münbitliyini itirir, məhsuldarlıq dəfələrlə azalır və bəzi hallarda tamamilə sıradan çıxır. Respublikada külək eroziyasına məruz qalan torpaqların ümumi sahəsi 200 min hektardır.

Torpaqların şoranlaşması isə Azərbaycanda ən böyük ekocoğrafi problemlərdən biri hesab edilir. Ölkədə şoran torpaqların ümumi sahəsi 2 milyon hektardan artıqdır və bunun 1,32 milyon hektarı Kür-Araz ovalığındadır. Müəyyən edilib ki, respublikanın suvarılan torpaqlarının (1,43 milyon. ha) 600 min hektardan çoxu şoranlaşıb və bunun 224 min hektarı daha şiddətli şorlaşmış torpaqlardır. Beləliklə, ən çox şorlaşmaya məruz qalan torpaqlar Kür-Araz ovalığındadır. Bundan əlavə Siyəzən, Xızı rayonlarında, qismən Abşeron yarımadasında, Naxçıvan MR-da, Ceyrançöldə, Acınohur düzündə və s. yerlərdə də şoran torpaqlar mövcuddur. Məhsuldarlığı xeyli aşağı salan şorlaşmaya qarşı vaxtında tədbirlər görülmədikdə onun sahəsi genişlənərək daha böyük ərazidə torpaq və həm də bitki örtüyünün deqradasiyasına gətirib çıxarır.

Digər tərəfdən mütəxəssislərin fikrincə, suvarma qaydalarına düzgün əməl olunmadıqda əvvəlcədən şor olmayan, yaxud əsaslı yumadan sonra düzgün istifadə olunmayan sahələr şorlaşır. Bu prosesə təkrar şoranlaşma deyilir. Şoranlaşmış torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq üçün əsas vasitə onların su ilə yuyularaq duzlardan təmizlənməsidir. Yuma aparmaq və yuyulacaq sahələrdən duzları çıxarmaq üçün yeni kollektor-drenaj şəbəkəsinin yaradılması və köhnə şəbəkənin tam bərpa edilməsi əsas məsələdir. Çoxillik tədqiqatların nəticələri göstərir ki, respublikada torpaq sərvətlərinin deqradasiyası əsasən, üzvi maddənin (humus) itkisi, bioloji fəallığın zəifləməsi, fiziki aşınma, torpaq eroziyası (külək, su eroziyası vasitəsilə), torpaqların şorlaşması və şorakətləşməsi, qida çatışmamazlığı, rütubət çatışmamazlığı, texnogen və kimyəvi çirklənmə, torpağın-sənaye, şəhər, yol, kanal, aeroport, oyun meydançaları, kanal, su hövzələri, tikintilər, zibilxanalar, borular, neft mədənləri, bataqlıqlaşma, subasma və s. amillərdən asılıdır.

Mütəxəssislər hesab edirlər ki, Azərbaycanda torpaq örtüyünün ekocoğrafi vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsi tələb olunur. Buraya istehsal vasitələri və torpaq ehtiyatları üzərində mülkiyyət formasının dəyişdirilməsi, torpaq və su ehtiyatlarının dəqiq inventarizasiyası, torpaq kadastrı, torpaqların keyfiyyətcə qiymətləndirilməsi, kompleks meliorativ tədbirlərin həyata keçirilməsi, eroziya təhlükəsinə qarşı mübarizə, torpağın münbitliyi və suvarma sularının keyfiyyəti üzərində monitorinq aparılması və s. aiddir.

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# İki dövlət qurumundan meşə yanğınları ilə bağlı müraciət

## Aidiyyəti orqanlar vətəndaşlar arasında yanğın təhlükəsizliyi qaydalarına riayət olunması üçün maarifləndirmə işlərinə başlayıb

**Ekologiya və ətraf mühitin mühafizəsi**

***Son günlər havanın temperaturun xeyli yüksəlməsi meşə yanğınlarının başvermə ehtimalını artırıb. Məsələn, 16 iyun saat 16:30 radələrində Ağsu rayon bələdiyyəsinin taxıl sahəsində başlamış yanğın sonradan Şamaxı Regional Meşə Təsərrüfatının Ağsu meşəbəyliyinin 8 saylı dolayına keçib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Regional Meşə Təsərrüfatı Mərkəzinin və Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Dəstəsinin əməkdaşlarının səyi nəticəsində yanğının qarşısı alınıb. Yanğın nəticəsində 3 hektar sahədə kol-kos və quru ot örtüyü yanıb.***



Qeyd edək ki, yanğın hadisələrinin əksəriyyəti vətəndaşların ehtiyatsızlığı və etinasızlığı səbəbindən baş verir. Bir neçə gün öncə Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı nazirlikləri bununla bağlı birgə müraciət yayıb. Müraciətdə bildirilir ki, hər il dünyanın müxtəlif bölgələrində baş verən meşə yanğınları minlərlə hektar meşə sahəsinin, yaşıllığın məhvi ilə nəticələnir, meşə zolaqları yanaraq külə dönür:

"Azərbaycan da digər ölkələr kimi meşə yanğınlarından sığortalanmayıb.İndiyədək meşə sahələrində baş vermiş yanğın hadisələrinin araşdırılması göstərir ki, yanğınların 98 faizi insan amilinin təsirindən, yəni yanğın təhlükəsizliyi qaydalarına riayət etməyən vətəndaşların, taxıl biçinindən sonra sahələrə od vuran fermerlərin, təbiət ərazilərinə yaxın kəndlərin sakinlərinin odla ehtiyatsızlığından və digər səbəblərdən baş verir".

Müraciətdə həmçinin vurğulanır ki, isti, quraq yay günlərinin və taxıl biçini mövsümünün başlaması yanğınların başvermə ehtimalını artırır və qabaqlayıcı tədbirlərin görülməsinə zərurət yaranır. Bu məqsədlə hər iki dövlət qurumu yanğın hadisələrinin baş verməməsi üçün fermerlərə, bələdiyyə və icra orqanları nümayəndələrinə, kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara, ümumilikdə bütün əhaliyə müraciət ünvanlayıb: "Fermerlərə, bələdiyyələrə, kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara, vətəndaşlara müraciət edirik ki, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər, odla ehtiyatlı davransınlar, söndürülməmiş kibriti, siqaret kötüklərini ətrafa atmasınlar, biçindən sonra sahələrə od vurmasınlar, kövşənləri yandırmasınlar. Çünki cüzi ehtiyatsızlıq qarşısıalınmaz meşə yanğınlarına səbəb olar, meşə sahələrinin, flora və faunanın məhvi ilə nəticələnər.

Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı nazirlikləri belə halların baş verməməsi üçün fermer təsərrüfatları, bələdiyyələr və kənd əhalisi ilə yanğın təhlükəsizliyi qaydalarına riayət olunması üçün maarifləndirmə işlərinə başlayıb. Qeyd edək ki, yanğın hallarının qarşısının alınması, günahkar şəxslərin müəyyən edilməsi və onların həm qanun qarşısında cavab verməsi, həm də ictimai tənbeh olunması üçün müvafiq qurumlarla birgə tədbirlər görüləcək".

Məlumat üçün bildirək ki, bu gün dünyada meşələrin məhv olmasının əsas səbəblərindən biri məhz onun yanğınlara məruz qalması sayılır. Təsadüfi deyildir ki, hər il dünyanın müxtəlif bölgələrində baş verən meşə yanğınları minlərlə hektar meşə sahəsinin, yaşıllığın məhvi ilə nəticələnir. İnsanların məsuliyyətsizliyi ucbatından uzun illər ərzində qorunub saxlanmış meşələr, nadir ağaclar bir anda məhv olur. Bu da son nəticədə planetdə təbii balansın pozulması, həmçinin fauna və floranın məhvi, müxtəlif xəstəliklərin yaranması kimi fəsadlara yol açır. Ümumdünya Vəhşi Təbiət Fondunun son illər artmaqda olan meşə yanğınları ilə bağlı apardığı elmi tədqiqatlar barədə hesabatında bildirilir ki, dünyada baş verən meşə yanğınlarının cəmi 4 faizi ildırım vurması və s. təbii səbəblərdən baş verir. Digər hallarda isə yanğınlar qəsdən və ya yanlış aparılan meşə təsərrüfatı siyasəti nəticəsində insanlar tərəfindən törədilir.

Qeyd edilir ki, meşə yanğınlarının tüğyan etdiyi ən acınacaqlı region Aralıq dənizi hövzəsidir. Araşdırmalara görə, 1960-cı ildən indiyədək regionda il ərzində baş verən meşə yanğınları 4 dəfə artıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, hər il Aralıq dənizi hövzəsində 50 min meşə yanğını hadisəsi qeydə alınır və bunun nəticəsində 800 min hektar meşə sahəsi məhv olur. Bu yanğınlardan xüsusilə İtaliya, İspaniya, Fransa, Portuqaliya və Yunanıstan daha çox ziyan çəkir. Son onilliklərdə Avropa ölkələrində meşəsalmada yanğınadavamlı palıd ağaclarının efir yağları ilə zəngin evkaliptlərlə əvəzlənməsi dəbdədir. Hesabat müəllifləri, həmçinin bu cür ağac növlərinin kütləvi halda əkilməsinə son qoyulmasını da tələb edib. Həmçinin gələcəkdə baş verəcək daha böyük fəlakətləri önləmək üçün Avropa ölkələri ciddi addımlar atmağa çağırılır. Məlumat üçün bildirək ki, meşələr öz funksiyalarına görə eroziyaya qarşı (torpaq qoruyucu), su qoruyucu (meşə döşənəyi), çay kənarlarındakı qoruyucu meşələr (Kür çayı sahili Tuqay meşələri), şəhər yaşıllığı (parklar və bağlar), yol kənarındakı qoruyucu meşələr, istirahət və sanitar məqsədli kurort ərazilərdəki meşə sahələri və s. qruplara bölünür. Son illərdə respublikanın əksər bölgələrində meşəçilik və meşə təsərrüfatı tədbirlərinin həyata keçirilməsinə başlanılıb. Məqsəd meşələrin münbitliyini və məhsuldarlığını artırmaq, meşə fondu torpaqlarından daha səmərəli istifadə etmək, meşələrin ətraf mühitə müsbət təsirini və qoruyucu funksiyalarını yüksəltməkdən ibarətdir.

Araşdırmalara görə, respublikamızda meşə ilə örtülü sahələrdə bitki örtüyü cinslərə görə təqribən aşağıdakı kimi paylanılıb: şam 0,04 faiz, ardıc 2,37 faiz, fıstıq 31,68 faiz, palıd 23,4 faiz, vələs 26,01faiz, göyrüş 0,01faiz, ağcaqayın 0,22 faiz, qovaq 3,58 faiz, qızılağac 1,87 faiz, cökə 1,71faiz, qarağac 1,16 faiz, digər cinslər 7,95 faiz olduğu müəyyən edilib.Dünyada rast gəlinən bitki növlərinin demək olar ki, hamısı respublikamızda yayılıb. Azərbaycanda bitən təxminən 4500 növ ali, sporlu çiçəkli bitkilər 125 dəstə 920 cinsdə birləşir.

Azərbaycanın dövlət əhəmiyyətli meşə fondunun ümumi sahəsi 1159,2 min hektardır, o cümlədən meşə ilə örtülü 935,5 min ha, ümumi oduncaq ehtiyatı isə 124,54 min m3-dir. Ümumiyyətlə meşə sahələrinə və oduncağın ehtiyatına görə Azərbaycan azmeşəli (meşəsi çatışmayan) respublikadır. Burada hər adambasına 0,14 ha meşə sahəsi və 18,4 m3 oduncaq düşür. Respublika ərazisinin meşəliliyi 11,4 faizdir və onlar ərazidə heç də bərabər şəkildə yerləşməyib.

Meşələrin əsas sahəsi Böyük Qafqazın cənub yamacları hissəsindədir - 311,1 min ha, Qarabağda 187,7 min ha, Talışda isə 139,7 min ha-dır. Əgər dağ zonalarında meşəlilik 18-43faiz arasında dəyişirsə, aran rayonlarında 0,5-2 faizə qədər azalır. Burada tamamilə meşəsiz olan inzibati rayonlar da mövcuddur. Belə ki, dağ yamaclarında və dağ çaylarının vadilərində meşələr ərazinin 60-95 faizni tutduğu halda, dağətəyi və düzənlik sahələrin yalnız 2-15 faizi meşəlikdir, Naxçıvan MR-da isə 0,4 faiz təşkil edir. Yeri gəlmişkən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi əvvəlki illərdə yanğına məruz qalan meşə sahələrinin bərpası məsələsini daim diqqətdə saxlayır. Belə ki, payız mövsümündə meşəbərpa işlərinin aparılması üçün Qəbələ, Oğuz, Şəki, Bərdə, Yardımlı, Şamaxı, İsmayıllı rayonlarının yanğına məruz qalan meşə sahələrində hazırlıq işləri görülüb. Əvvəlcə torpağın üst qatı yumşaldılıb, sonra müxtəlif meşəcinsli ağacların toxumları səpilib.

■ **Məsələyə münasibət bildirən "Ruzgar" Ekoloji İctimai Birliyinin sədri, AMEA-nın müxbir üzvü İslam Mustafayev bildirib ki, meşə zolaqlarının yanmasının qarşısının alınması məqsədilə əhali arasında davamlı olaraq maarifləndirmə işləri aparılmalıdır:** "Araşdırmalarımız onu göstərir ki, meşə yanğınları əsasən biçilmiş taxıl yerlərinin yandırılması, turistlərin istirahət üçün gəldikləri ərazilərdə yandırdıqları odu söndürməmləri, maşından keçən yolçuların yanan siqareti əraziyə atması kimi səbəblərdən baş verir. Meşə yanğınlarının 90 fazindən çoxunu əhali törədir. Çox az hallarda ildırım düşməsindən, meşəyə düşən hər hansı predmetin günəş enerjisi yığmasından yarana bilər. Aparılan hesablamalara görə, son 100 ildə dünyada meşələrin 56 faizi yanıb. Belə ki, ildə dünya üzrə 20 milyon hektara qədər meşə yanır. Təbii ki, Azərbaycan da meşə yanğınlarından sığortalanmayıb. Nəzərə almalıyıq ki, Azərbaycan hər adambaşına düşən meşə sahəsinə görə dünyada mövcud olan orta standartdan aşağıdır. Bu baxımdan ölkəmizdə ildə onlarla hektar meşə sahəsinin yanması olduqca zərərli tendensiyadır".

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Mollanəsrəddinçilərin ideyaya bükülmüş gülüşü Kamal Camalov yaradıcılığında

***Kamal müəllim maarif və mədəniyyət tariximizin qaranlıq buludlarından sıyrılaraq çıxıb günəş kimi parlayan mollanəsrəddinçiləri təhlil obyektinə çevirərkən istər-istəməz onlar haqqında bunları düşünməli oluruq.***



**Müdafiə Mahmudov,**
pedaqogika üzrə elmlər doktoru, professor

Həyatları gənclər üçün örnək olan mollanəsrəddinçilərin (Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim Bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi, Əli Razi, Mirzə Məhəmməd Hatif (Axundov), Mirzə Cab□bar Əsgərzadə, Əli Məhzun Rəhimov, Salman Mümtaz, Qurbanəli Şərifzadə, Üzüyir Hacıbəyov və b.) çoxtərəfli yaradıcılıq fəaliyyətlərinin öyrənib oxuculara təqdim edilməsinin özü də ən xeyirxah, nəcib işdir.

Bu mənada, Kamal Camalovun 2015-ci ildə "Elm və təhsil" nəşriyyatı tərəfindən çapdan buraxılmış "Mollanəsrəddinçilərin maarifçilik ideyaları" monoqrafiyası (elmi redaktoru AMEA-nın müxbir üzvü, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Oruc Həsənli, rəyçilər pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov, pedaqogika üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi Rüfət Hüseynzadə, pedaqogika üzrə elmlər doktoru, professor Elbəyi Maqsudov və filologiya üzrə elmlər doktoru, professor, Tərəqqi medallı Əsgər Qədimovdur) diqqəti cəlb edir. Kamal Camalovun monoqrafiyada özünün də dediyi kimi "Molla Nəsrəddin" jurnalı haqqında kifayət qədər araşdırmalar aparılmış, kitab və kitabçalar yazılmış, dərslik və dərs vəsaitləri, albomlar tərtib edilmiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur [Bax: səh.9]. Ancaq bu heç də o demək deyil ki, mollanəsrəddinçilərin həyat və yaradıcılıq yolları incəliklərinə qədər öyrənilmiş, "Molla Nəsrəddin" jurnalında və mollanəsrəddinçilərin yaradıcılığında tədqiq edil□məli bir məsələ, bir problem qalmamışdır. Əksinə, mollanəsrəddinçilərin həyat yoluna və zəngin ədəbi-pedaqoji irslərinə dərindən nüfuz etdikcə, onların yaradıcılığı ətrafında tədqiqat və tapıntılar genişləndikcə öyrənilməmiş prob□lemlər daha bariz, daha qabarıq şəkildə nəzərə çarpır. Mollanəsrəddinçilərin çoxcəhətli pedaqoji-ictimai fəaliyyətində elə məsələlər, elə problemlər vardır ki, bunlara indiyə qədər ya heç toxunulmamış, yaxud da ötəri və ümumi şəkildə bəhs olunmuşdur.

Görkəmli pedaqoq alimlər Hüseyn Əhmədovun, Fərrux Rüstəmovun, Gültac Əliyevanın, Solmaz Həsənlinin, Ənvər Abbasovun, Hümeyir Əhmədovun və başqalarının da təhlillərindən aydın hiss olunur ki, Kamal Camalov gərgin axtarışlar apararaq mollanəsrəddinçilər haqqında elmi dəyərli, publisist məziyyəti, orijinallığı, inandırıcılığı və səmimiliyi ilə seçilən qiymətli bir əsər yazmağı qarşısına məqsəd qoymuş və o, bu şərəfli vəzifənin öhdəsindən ləyaqətlə gəlməyi də bacarmışdır.

Kamal Camalov monoqrafiyada mollanəsrəddinçilərin həyatı, yaradıcılığı və ictimai fəaliyyətindəki bütün cəhətlərə nüfuz edə bilmiş, sanki mollanəsrəddinçilərin yaşayıb fəaliyyət göstərdiyi o zamankı mühiti, onunla əlaqədar cərəyan edən hadisələrə zərrəbinlə baxaraq daha yaxından görməyə çalışmış və əsasən də Cəlil Məmmədquluzadənin, Ömər Faiq Nemanzadənin, Əbdürrəhim Bəy Haqverdiyevin, Salman Mümtazın, Mirzə Ələkbər Sabirin, Əliqulu Qəmküsarın və başqalarının qaynar hadisələr fonunda əsl obrazlarını yaratmış, axtarışlar yolunu, büllur kimi saf məslək və inamlarını, vətənpərvərlik rəşadətlərini, mübarizlik cəsarətlərini, yaradıcılıq istedadının bəhrələrini müasir oxucularının gözü qarşısında canlandırmışdır.

Monoqrafiyanı oxuduqca müəllifin nə qədər zəngin mənbələrdən faydalandığına heyran qalırsan. Tədqiqatçı mollanəsrəddinçilər dövrünün mətbuatını diqqətlə nəzərdən keçirərək hər kəsin özünəməxsus fikrini və hadisələrə münasibət tərzini ustalıqla ayırmış, hətta hər kəsin öz sözündən, danışıq tərzindən istifadə etmişdir.

Əməkdar müəllim Kamal Camalovun əsəri görkəmli mollanəsrəddinçilərin pedaqoji fəaliyyətlərini və yaxud maarifçi görüşlərini əhatə etmək nöqteyi-nəzərindən də maraqlıdır. Belə ki, müəllif mollanəsrəddinçi pedaqoq və maarifçilərin yaradıcılıqlarını elmi dəqiqliklə, sübutlarla yazmış, bir sıra faktları dürüstləşdirmişdir.

Bu baxımdan, Kamal Camalov mollanəsrəddinçilər sənətinin vurğunudur. Məhz bu vurğunluq onun sətirlərinə də köçmüş, böyük demokratlara dərin məhəbbətini təcəssüm etdirmişdir. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov mollanəsrəddinçilər haqqında hər hansı bir mülahizə irəli sürərkən tələsik nəticə çıxarmağa çalışmamış, əksinə, hər bir hadisəyə dövrün ictimai-siyasi hadisələri baxımından nüfuz etmişdir. Onunla bağlı hər bir sənədi ehtiyatla və məhəbbətlə açmış, oxuculara da bu cür rəftar etməyi məsləhət bilmişdir.

Kitabdakı elmi məziyyətlərdən biri də ondan ibarətdir ki, Kamal Camalov mollanəsrəddinçilərin mollaxanalarda, mədrəsələrdə, yeni üsullu məktəblərdə və Gürcüstan (Cəlil Məmmədquluzadə, Məmməd Qarayev, Üzüyir Hacıbəyov), İran (Mirzə Əli Möcüz), Türkiyə (Ömər Faiq Nemanzadə), Rusiya (Əbdürrəhim Bəy Haqverdiyev), Aşqabad (Salman Mümtaz) kimi ruhani və ali məktəblərdəki fəaliyyətlərinin inkişaf dinamikasını düzgün müəyyənləşdirə bilmiş, onların dünyagörüşünün formalaşmasında mütərəqqi rus, türk və Azərbaycan ziyalılarının rolunu qiymətləndirmiş, hələ tələbə ikən mollanəsrəddinçilərin orijinal yol tutmağa, haqqədalət uğrunda mübarizə aparmağa qabil olduqlarını göstərmişdir.

Məhz özlərinə düzgün yol seçdikləri üçün stolipinlərin, zilli-sultanların, məhəmmədəli şahların, sultan əbdülhəmidlərin ləyaqətsizliklərinə "Doğrudan da, Məmdəli, qeyrət həlal olsun sənə" ["Molla Nəsrəddin" jurnalı, 1909, №28], "El çəkir namımı min lənət ilə" ["Molla Nəsrəddin" jurnalı, 1911, №5], "Məmdəli deyir ki" ["Yeni həqiqət" qəzeti, 1911, №19], "Əbdülhəmid" ["Molla Nəsrəddin" jurnalı, 1911, №47], "Mənimki belə düşdü" ["Molla Nəsrəddin" jurnalı, 1909, №18] və s. satirik şeir və felyetonlarında qəzəblə gülmüş, onları cəsarətlə tənqid etmişlər. Kamal Camalov mollanəsrəddinçilərin bu cəsarətlərini böyük fəzilət adlandırır və sevinir ki, bu cür nümayişkaranə açıqlıq faciə doğurmamış, xətər sovuşmuşdur.

Monoqrafiyada mollanəsrəddinçilərin xalqa, vətənə təmənnasız xitmətlərini ən müqəddəs əxlaqi keyfiyyət hesab edən bir vətəndaş olmaları inkarolunmaz faktlarla aşkarlanır. Biz monoqrafiyanı vərəqləyərkən mollanəsrəddinçiləri sosial demokratiyanın bütün demokratik məramnamələrini qəbul edən bir maarifçilər kimi görürük. Onların ictimai-siyasi və pedaqoji görüşləri inqilabi demokratik fikrin ifadəsinə, ictimai-pedaqoji fəaliyyətin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Mollanəsrəddinçiləri tədqiqatçı bizə Yan Amos Komenskinin, Conn Lokkun, Tolstoyun, Pestalossinin, Uşinskinin, Makarenkonun ideyalarından bəhrələnən bir müəllimlər, maarifçilər kimi təqdim edir. Bu, həqiqətən də belədir: Uşinski kimi pedaqoqlar da lazım bilmişlər ki, uşağın təlim və tədrisi də haman "yaxından uzağa" və "məlumdan qeyri-məluma" getmək üsulu ilə olsun...". "K.D.Uşinski təfəkkürün və nitqin müşahidəçiliyi vəhdəti prinsipindən çıxış edərək göstərir ki, şagirddə dil və təfəkkür qabiliyyəti birgə inkişaf etməlidir" [Bax: səh.165]. K.D.Uşinskinin təlimi ilə "Yaxından uzağa", "məlumdan qeyri-məluma", "təbii üsul ilə" düzülən, "yazılışı təqdirə və təhsilə layiq", "insanlıqla oxunan" dərsliyin digər bir üstünlüyünü Üzeyir Hacıbəyov tərbiyə işlərində uşaqların həm qəlbini, həm əqlini, həm də zövqünü tərbiyə edəcək vasitə kimi yüksək qiymətləndirir. Çünki bu üsul öz həyatiliyi, əyaniliyi və didaktik prinsiplərinə tam uyğunluğu ilə ona xoş gəlir.

Pedaqoji fikir tarixi, eləcə də XX əsrin əvvəllərində nəşr edilmiş mətbuatla tanış olan tədqiqatçılara bəllidir ki, həmin dövrdə məktəblərdə hansı elmlərin öyrədilməsi, dərslərin hansı üsulla keçirilməsi böyük mübahisələrə səbəb olmuş, bir neçə il mətbuat səhifələrində bu barədə fikir mübadiləsi aparılmışdır. Hətta "Nəşri-maarif" və "Nicat" cəmiyyətləri də bu məsələyə xüsusi diqqət yetirmişlər. Təəssüf ki, həmin yazıların bəzilərində xalq məktəbləri direktoru Levnskinin "lal metod"u ilə mütərəqqi əhəmiyyət kəsb edən "təbii üsul" eyniləşdirilmiş, onların fərqli cəhətləri kölgədə qalmışdır. Bu yanlışlıq bəzi tədqiqatçılarımızın da yazılarında özünü göstərir.

Monoqrafiyanın məziyyətlərindən bi□ri də həmin üsullar arasındakı fərqli cəhətləri göstərməsindədir. Tədqiqatçı çox düzgün qeyd edir ki, Azərbaycanın mütərəqqi fikirli ziyalıları, o cümlədən C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyov, Məmməd Səid Ordubadi və başqaları Levnskinin "lal metod"una qarşı ciddi mübarizə aparmışlar. Lakin dar dünyagörüşlü bəzi müəllimlər həmin üsuldan istifadə etmişlər [Bax: "Molla Nəsrəddin" jurnalı, 1907, №42].

Müəllimlərin I qurultayında Nəriman Nərimanovun başçılığı ilə mütərəqqi fikirli ziyalılarımız "lal motod"un məktəblərimizdən götürülməsinə qərar verdilər. Söz yox ki, bu qərarın qəbul edilməsində mollanəsrəddinçilərin də xidməti monoqrafiyada təhlil olunmuşdur [Bax: səh.170-186].

Mollanəsrəddinçilər müəllimlik sənətinə həmişə yüksək qiymət vermiş, müəllimləri xalqın gözünü açmağa çağırmış və onların həqiqi müdafiəçisi olmuşlar. Onlar pedaqoji məsələlərə, xalq maarifinə dair yazdıqları "hər bir böyük və kiçik əsərlərinə ən müqəddəs arzularını, nəcib duyğularını qatmış, onları ürəyinin hərarəti, gözlərinin qarası ilə yazmışlar". Mollanəsrəddinçilər pak vicdanlı müəllimləri jurnal, qəzet vasitəsilə tənqid etməyin əleyhdarı olmuşlar, müəllim ruhundan xəbərləri olmayan müəllimləri isə acımasızcasına satira atəşinə tutmuşlar.

Bax, ona görə də Kamal Camalov mollanəsrəddinçilərin insani keyfiyyətləri haqqında xüsusi danışır, həmin keyfiyyətləri bir növ təlqin edir, alqışlayır. Mollanəsrəddinçilər "sənətin hansı sahəsinə əl atırsa, işə hər şeydən əvvəl, bir vətəndaş kimi girişir, hər biri öz-özündən hesabat tələb edir: nəyin xatirinə yaradırsan, nə məqsədlə yazırsan?".

Kamal Camalov çox düzgün qeyd edir ki, mollanəsrəddinçilərin gülüşü iki yerə: cavan vaxtı müstəqil, pərdəsiz gülüşə, təcrübə qazandıqdan sonra isə zərif eyham və işarələrlə, məsxərə yolu ilə gülüşə bölünür. Göstərilir ki, mollanəsrəddinçilər şit gülüşü sevmir, onlar nəinki gü□lür və güldürür, həm də düşündürür. Onların gülüşü dərindir, həmin gülüşlərə ideya bükülmüşdür, onların gülüşü neştər kimi öldürücüdür. Qeyd etdik ki, mollanəsrəddinçilər gülür, güldürür, həm də düşündürür. Bu yanaşma Üzeyir Hacıbəyovun Məmməd Səid Ordubadiyə yaz□dı□ğı bir məktubda da öz əksini tapır. "Mollanəsrəddinçilərin gülüşü XX əsrin əvvəllərində müasirləri olduğu dövrün mənfiliklərini tənqidə tutmaqla fəhlələrə, zəhmətkeş kəndlilərə, inqilab işinə xidmətdir".

Monoqrafiyanın dəyərli cəhətlərindən biri də Kamal Camalov tərəfindən Üzeyir Hacıbəyovun "Molla Nəsrəddin" jurnalının müxbir üzvü olmasını və eləcə də Cəlil Məmmədquluzadənin ideyaları ilə səsləşdiyini ilk dəfə yeni faktlar əsasında oxuculara çatdırmasıdır. Qeyd olunur ki, Üzeyir Hacıbəyov "Molla Nəsrəddin"in həqiqi dostu olmuş, onun apardığı ədalətli ideya mübarizəsinə inanmış, bu mübarizəyə qoşulmuş və onu "Anaş qurbağa", "Tısbağa", "Başıqapazlı", "Fəhlə" və s. kimi gizli imzalarla müdafiə etmişdir. "İrşad" qəzetinin 21-ci nömrəsində "Molla Nəsrəddin" redaktorunun öldürülməsi haqqında Bakıda şayiə yayıldığı və bu xəbərin maarifpərvərlər arasında böyük həyəcana səbəb olduğu yazılmışdır. Həmin qəzetin 22-ci nömrəsində Üzeyir Hacıbəyov şayiə yayanlara maraq dolu cavab yazır: "İndi bu müfəttinlər bilməlidirlər ki, işıqdan qorxan şəbpərələr xislətindən: nə fikirləşirsiniz? Bir-iki nəfər məmmədquluzadələrin, nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, "Molla Nəsrəddin"i öldürəcəksiniz?! Hərgah xalqımızın bu mücahid fədakarlarının qətlinə əl qalxıza bilən bir dəni [alçaq, rəzil anlamında - M.M.] və əclaf tapılsa da, bunu biləsiniz ki, onların, xudanəkərdə, ölməkləri ilə yaratdıqları fədakarlıq, ali fikirlər ölməz! Bunu biləsiniz ki, Molla Nəsrəddini öldürmək mümkün olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz!"

Həqiqətən, "Molla Nəsrəddin" haqqında iftixarla danışan, doğru rəy söyləyən, sözündə və mövqeyində sabitqədəm müasirlərindən biri olan Üzeyir Hacıbəyov olmuşdur.

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının Əməkdar müəllimi, icitimai-siyasi xadim Kamal Camalov özünəməxsus dəstixəddi və üslubu olan təcrübəli bir araşdırıcıdır. Tədqiqat apardığı sahədə ən incə mətləblərdən zərgər dəqiqliyi ilə söz açmağı sevir. Məhz bu keyfiyyətlər ona "Mollanəsrəddinçilərin maarifçilik ideyaları" sanballı monoqrafiyasını yüksək keyfiyyətlə yazmaq imkanı vermişdir. Kitab ədəbipedaqoji ictimaiyyətimiz, xüsusilə mollanəsrəddinçilər irsini öyrənənlər üçün layiqli töhfədir. 350-dən artıq elmi-pedaqoji fəaliyyəti ilə oxucuların dərin rəğbətini qazanmış Kamal Camalovdan biz bir daha yeniyeni monoqrafiyalar, dərsliklər və dərs vəsaitləri gözləyirik.




ŞOU-BİZNES

## Ebru bir həftədə 180 min qazanacaq

**Müğənni Ebru Gündeşin "O Səs Türkiyə"dən alacağı qonorarın miqdarı məlum olub. Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, şouda Seda Sayanı əvəzləyən sənətçi bir həftə üçün 180 min TL (təxminən 45 min manat) alacaq.**



Bununla da, Ebru "O səs"də münsif olmaq üçün ayda 720 min lirə (179 min AZN) qazanacaq. Qeyd edək ki, layihə rəhbəri Acun Ilıcalı müsabiqədə münsiflərin dəyişəcəyini açıqlamışdı. Hadisə, Murad Boz və Bəyazit Öztürkün yerinə gələcək məşhurların adları hələlik mətbuata açıqlanmır.

İDMAN

## MBA oyunçularının əksəriyyəti Lebron Ceymsin tərəfindədir



**Milli Basketbol Assosiasiyasında (MBA) çıxış edən basketbolçuların əksəriyyəti Lebron Ceymsin mövsümün bərpası ilə bağlı istəyini dəstəkləyir.** Liqa rəhbərliyi iyulun sonunda çempionatın davam etdirilməsi ilə bağlı qərarı açıqlayandan sonra bəzi oyunçular meydana çıxmayacaqlarını bildirmişdilər.

ABŞ-da irqçiliklə bağlı hadisələrdən sonra isə narazı basketbolçuların sayı artıb. Amma Lebron Ceyms mövsümün bərpasına tərəfdar çıxandan sonra etirazçılar geri çəkilməyə başlayıblar. Hazırda MBA ictimaiyyəti arasında belə bir fikir formalaşıb ki, liqanın davam etdirilməsinin əsas səbəbkarı "Leykers"in lideridir. Məhz Lebronun meydana çıxması sayəsində gəlirlərin azalmasının qarşısını almaq mümkündür.

## UEFA-dan Çempionlar Liqası üçün "Səkkizlər finalı"

**UEFA avrokubok mövsümünü başa vurmağın müxtəlif variantlarını nəzərdən keçirib. UEFA Çempionlar Liqasının qalan hissəsi ilə bağlı qərar verib. Oyunlar Lissabonda "Səkkizlər finalı" formatında keçiriləcək.** Dörddəbir final avqustun 12-dən 15-dək, yarımfinal 18-dən 19-dək, final isə avqustun 23-də təşkil olunmalıdır.



Püşkatma iyulda Nyonda olacaq. Səkkizdəbir finalın "Yuventus"-"Lion" və "Barselona"-"Napoli" görüşləri müvafiq olaraq avqustun 7-də və 8-də Turin və Barselonada keçiriləcək. "Mançester Siti"-"Real" və "Bavariya"-"Çelsi" görüşlərinin məkanı isə hələ dəqiqləşməyib. Yeni qərara əsasən İstanbulun bu il deyil, gələn il keçiriləcək Çempionlar Liqası finalına ev sahibliyi edəcəyi vurğulanıb. 2021/2022-ci il mövsümünün finalı Sankt-Peterburqda olacaq. UEFA Superkuboku uğrunda matç sentyabrın 24-də Budapeştdə təşkil ediləcək. Bu qərarların UEFA İcraiyyə Komitəsinin iyunun 17-dəki iclasında təsdiqlənəcəyi bildirilib.

## "Arminiya" 11 ildən sonra Bundesliqaya yüksəlib



**Almaniya Bundesliqasına yüksələn komandalardan biri müəyyənləşib. Bilefeldin "Arminiya" klubu yüksək dəstədə oynamaq hüququ qazanıb. Bu, 2-ci Bundesliqanın XXXI turunun ilk oyun günündə rəsmiləşib. İkinci pillədə olan "Hamburq" "Osnabryuk"la qarşılaşmada xal itirib - 1:1. Bununla da "Arminiya" hamburqlular üçün əlçatmaz olub.**

Bilefeldlilər 31 matçdan sonra 61 xala malikdir. 54 xalı olan "Hamburq"un isə yalnız iki qarşılaşması qalib. Düzdür, 52 xalla 3-cü olan "Ştutqart"ın da üç oyunu qaldığından liderə çata bilər. Amma "Arminiya"ya artıq Bundesliqaya birbaşa vəsiqə qazandıran ilk iki yerdən birini təmin edib. Qeyd edək ki, 11 ildən sonra güclülər sırasında olacaq. Komanda sonuncu dəfə 2008/09 mövsümündə Bundesliqada çıxış edib.

ELAN

**"Data Plus" abunəçilərinin nəzərinə!**

**"Data Plus" MMC internet xidmətinin göstərilməsi haqqında bağlanmış müqavilə üzrə göstərdiyi xidmətləri təkmilləşdirmək, gələcəkdə geniş çeşidli və daha keyfiyyətli xidmətlər təqdim etmək üçün telekommunikasiya xidmətləri sahəsində daha yeni nəsil şəbəkəyə və texniki infrastruktura malik olan "CityNet" ticarət nişanı ilə tanınan "Uninet" MMC ilə birgə əməkdaşlığa qərar verib. 23.06.2020-ci il tarixindən etibarən sizinlə "Data Plus" MMC arasındakı münasibətlər adları çəkilən hər iki şirkətin rəsmi internet səhifələrində (www.dataplus.az<http://www.dataplus.az <www.dataplus.az%3chttp://www.dataplus.az>>, www.citynet.az<http://www.citynet.az <www.citynet.az%3chttp://www.citynet.az>> və www.uninet.az<http://www.uninet.az <www.uninet.az%3chttp://www.uninet.az>>) yerləşdirilmiş "İnternet xidməti göstərilməsi haqqında abunə müqaviləsi"nin şərtlərinə uyğun tənzimlənəcəkdir. Bu dəyişiklik tarif paketlərinə və xidmətin göstərilməsi qaydalarına təsir etməyəcək və hazırkı bildirişin tarixindən sonra 10 (on) təqvim günü müddətində etirazınız daxil olmadığı təqdirdə tərəfimizdən göstərilən internet xidməti eyni şərtlərlə və qiymətlərlə təqdim ediləcək. Xidmətin dəyərinin ödənilməsi zamanı "Data Plus" və ya "Uninet" loqosunu seçməyinizi xahiş edirik.**

**Bərdə rayon Nazırlı kənd sakini Hüseynov Hüseyn Əli oğlunun adına verilmiş JN :277 kod 61017018 nömrəli Dövlət aktı itirildiyi üçün etibarsız sayılır.**

**Bərdə rayon Şirvanlı kənd sakini Aslanova Kəklik Allahqulu qızının adına verilmiş JN :369 kod 61023018 nömrəli Dövlət aktı itirildiyi üçün etibarsız sayılır.**